Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 166 (7893) ŞƏNBƏ, 28 iyul 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



## Peru Respublikasının Prezidenti zati-aliləri cənab Martin Vizkarra Kornexoya

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Peru arasındakı münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Peru xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2018-ci il*

## Astara rayonunun Ojakəran-Tüləküvan-Təngərüd avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Doqquz min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Ojakəran-Tüləküvan-Təngərüd avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,4 milyon (üç milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2018-ci il*

## Əhalinin məşğulluq probleminin həlli ardıcıl xarakter daşıyır

### Bu ilin birinci yarısında ölkədə 67 min yeni iş yeri yaradılıb

Bu ilin birinci yarısında 67 min yeni iş yerinin yaradılması ölkədə əhalinin məşğulluq probleminin həllinə yönəldilən tədbirlərin ardıcıl olduğunu təsdiqləyir. Yeni iş yerlərinin 58 mini daimidir. Müxtəlif səbəblərdən 20 mindən çox iş yeri bağlansa da, bu sahədə dinamika müsbətdir.

Dövlət Statistika Komitəsinin məlumatına görə, regionların sosial-iqtisadi inkişafına yönəldilmiş üçüncü Dövlət Proqramının icrasına başlanan 2014-cü ilin əvvəlindən bu ilin yanvarınadək ölkədə 721,2 min yeni iş yeri açılıb. Onlardan 530,4 mini daimidir. Təkcə keçən il 179,3 mini daimi olmaqla 281,4 min yeni iş yeri yaradılıb.

Yeni iş yerlərinin 61 faizi qeyri-dövlət sektorunda açılıb. Təqdirəlayiq haldır ki, iş yerləri təkcə şəhərləri deyil, bölgələri də əhatə edir. Belə ki, onların 24,4 faizi Bakıda açılsa da, qalanı Azərbaycanın digər bölgələrin payına düşür.

*Ardı 2-ci səh.*



## İqtisadi müstəqillik davamlı tərəqqinin təminatçısıdır

**Milli iqtisadiyyatın əsas inkişaf istiqamətlərini, iqtisadi təhlükəsizliyini təmin edən Azərbaycan dövləti artıq dünya iqtisadi düzənində özünəməxsus mövqeyini müəyyənləşdirib və bəzi dövlətlərdən fərqli olaraq özünün növbəti uğurlu inkişaf modelini seçib.**

**Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən davamlı islahatlar nəticəsində Azərbaycan dünya iqtisadiyyatında yeni çağırışlara cavab verir.**

### Reytinq agentliklərinin Azərbaycan iqtisadiyyatının 2022-ci ildə 3,5 faizədək artacağını proqnozlaşdırması uğurlu islahatların göstəricisidir

### Son 15 ildə 24 dəfə artan valyuta ehtiyatları

Azərbaycan özünü təmin edən, milli köklərə əsaslanan, eyni zamanda dünya birliyinin etibarlı və layiqli üzvü olan dövlətdir. Beynəlxalq münasibətlərin dəyişdiyi, qloballaşan dünyada yeni məsələlərin, yeni çağırışların ortaya çıxdığı bir zamanda Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi islahatlar uğurlu nəticələr verir.

Son 15 ildə Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Təkcə bir fakta nəzər yetirək. Azərbaycan 15 il öncə 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 24 dəfə artaraq 44,3 milyard dollara yüksəlib.

Prezident İlham Əliyevin bu islahatlarının uğurlu gedişini şərtləndirən əsas səbəb onların təməl prinsiplərinin düzgün müəyyənləşdirilərək hazırlanması və qlobal çağırışlardan lokal gerçəkliyədək bütün tələb-şərtlərə uyğunlaşdırılmasıdır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin ilin birinci yarısının yekunlarına həsr olunan iclasında görülən işləri belə dəyərləndirmişdir: “Əlbəttə ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik. Son 15 ilin göstəriciləri bunu əyani sübut edir. İqtisadi baxımdan 15 il ərzində Azərbaycan qədər inkişaf edən ikinci dövlət yoxdur. Hətta böhranlı illərdə də biz öz iqtisadi gücümüzü qoruya bilmişik”.

### Qeyri-neft sektoruna qoyulan investisiyalar bəhrəsini verir

Bu ilin göstəriciləri isə onu deyir ki, həm əvvəlki illərdə, həm də bu il aparılan islahatlar müsbət nəticələr verir. Son altı ay ərzində ümumi daxili məhsul 1,3 faiz, kənd təsərrüfatı 7,6 faiz, qeyri-neft sektoru 2 faiz artıb. Qeyri-neft sənayesində 8,8 faiz artım qeydə alınıb. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar, sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir.

Ölkədə 67 min yeni iş yeri açılıb ki, onlardan 53 mini daimi iş yeridir. Azərbaycan iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub. İnflyasiya isə cəmi 3 faizdir. İnflyasiyanın aşağı səviyyədə olması onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir.

Əlbəttə ki, bütün bu uğurlu göstəricilər beynəlxalq reytiq agentliklərinin illik hesabatlarında da öz əksini tapır.

### Ən islahatçı 3 ölkədən biri

Ötən il dünyanın aparıcı beynəlxalq təşkilatları, qurumları, eyni zamanda tanınmış siyasətçilər, iqtisadçılar Azərbaycanın reallaşdırdığı hərtərəfli islahatları inkişaf etməkdə olan ölkələr üçün nümunə kimi göstərdilər. Beynəlxalq reytinq mərkəzləri və nüfuzlu kütləvi informasiya vasitələri ölkəmizin müxtəlif sahələrdəki uğurlarını yüksək qiymətləndirirlər.

Ötən il “Doing Business 2018” hesabatında Azərbaycan 8 pillə irəliləyərək 190 ölkə arasında 65-ci pillədən 57-ci yerə yüksəldi. Aparılan davamlı iqtisadi islahatların məntiqi nəticəsi olaraq Azərbaycan 8 pillə irəliləməklə yanaşı, Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri kimi müəyyənləşdi.

Bu hesabatda Azərbaycanın mövqeyi 10 indikatordan aşağıdakı altı indikator üzrə yaxşılaşdı: elektrik enerjisinin əldə edilməsi (3 pillə), əmlakın qeydiyyata alınması (1 pillə), kiçik investorların hüquqlarının qorunması (22 pillə irəliləyərək 10-cu yer), vergilərin ödənilməsi (5 pillə irəliləyərək 35-ci yer), müqavilələrin icrası (6 pillə irəliləyərək 38-ci yer) və müflisləşmənin həlli (39 pillə irəliləyərək 47-ci yer).

*Ardı 3-cü səh.*

## Prezidentin tapşırıqları Cocuq Mərcanlıda uğurla icra edilir

### *Böyük Qayıdışın ilk ünvanında əhalinin məşğulluğunun təmini sürətlə həyata keçirilir*

Cəbrayıl rayonunun işğaldan azad edilən Cocuq Mərcanlı kəndində yerli əhalinin səmərəli məşğulluğuna əlavə dəstək verilməsi, xüsusən kənddə özünüməşğulluq proqramı çərçivəsində müxtəlif iqtisadi fəaliyyət növləri üzrə fərdi təsərrüfatların qurulması istiqamətində işlər davam etdirilir.

Dünən kənddə daha bir layihə gerçəkləşib. Belə ki, İqtisadiyyat Nazirliyinin və Türkiyənin Azərbaycandakı Səfirliyinin birgə həyata keçirdiyi layihələr çərçivəsində istixana və arıçılıq təsərrüfatları yaradılaraq sakinlərin istifadəsinə verilib.

İqtisadiyyat Nazirliyinin, Türkiyənin Azərbaycandakı Səfirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “ABAD” publik hüquqi şəxsin, Türkiyə və Azərbaycan İş Adamları və Sənayeçilər İctimai Birliyinin, sahibkarların və kənd sakinlərinin iştirakı ilə keçirilən tədbirdə istixana və arıçılıq təsərrüfatları barədə geniş məlimat verilib.

İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan Ordusunun düşmənin təxribatına layiqli cavab verərək 2016-cı ilin aprel ayında həyata keçirdiyi uğurlu əks-hücum hərbi əməliyyatı ilə strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini azad etməsi nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaşayışın bərpa olunması və sakinlərin öz ata-baba yurdlarına dönməsi üçün əlverişli şəraitin yaradıldığını vurğulayaraq Böyük Qayıdışa Cocuq Mərcanlıdan başlayan Azərbaycanın işğaldan azad olunacaq bütün torpaqlarımızda tikinti-quruculuq işləri aparmağa qadir olduğunu bildirib.

Cocuq Mərcanlı kəndində bərpa işlərinin sürətlə aparılması 24 illik fasilədən sonra həyatın əvvəlki axarına qayıtması bunun əyani göstəricisidir. Şahin Musatafayev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsi, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması və sahibkarlığın inkişafının sürətləndirilməsi istiqamətində görülən işlər barədə də ətraflı danışıb.

*Ardı 2-ci səh.*

## Azərbaycan və Rusiya Xarici İşlər nazirlikləri arasında xarici siyasətin informasiya təminatı mövzusunda məsləhətləşmələr keçirilib

Azərbaycan Respublikası və Rusiya Federasiyası Xarici İşlər nazirlikləri arasında fəaliyyət proqramına uyğun olaraq Bakıda xarici siyasətin informasiya təminatı mövzusunda məsləhətləşmələr keçirilib.

AZƏRTAC xəbər verir ki, məsləhətləşmələrə Azərbaycan tərəfindən XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev və Rusiya tərəfindən XİN-in İnformasiya və mətbuat departamentinin direktoru Mariya Zaxarova rəhbərlik edib.

Görüşdə Azərbaycan və Rusiya arasında əlaqələrin strateji tərəfdaşlıq müstəvisində inkişafından məmnunluq ifadə olunub. Məsləhətləşmələr çərçivəsində kütləvi informasiya vasitələri və sosial şəbəkələrlə iş, rəqəmsal diplomatiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub və qarşılıqlı maraq doğuran sahələrdə təcrübə mübadiləsi aparılıb. Bu formatda məsləhətləşmələrin davam etdirilməsinin vacibliyi vurğulanıb.



## Yollar, a yollar...

**Son illər Azərbaycanda minlərlə kilometr yeni yol çəkilib, köhnələri təmir edilib, daha geniş və rahat olub. İndi yollarımız ən ucqar dağ kəndlərinə qalxır, vadilərdən keçir, çayların üstündəki körpülərdən, yerin altındakı tunellərdən adlayaraq bir-birinə qovuşur və bizi mənzil başına çatdırır.**

**Bu yollar indi çox rahatdır. İnsanlar yorulmadan, vaxt itirmədən istədikləri yerə gedib-gələ bilirlər.**

**Bu yollar mədəniyyətdir, göz oxşayan gözəllikdir, təhlükəsizlikdir...**

**Yollar həm də iqtisadiyyatın inkişafına xidmət edir. Ərzaq məhsulları ilə yanaşı, neçə-neçə növ yüklər yollarla daşınır, lazım olan ünvana vaxtında və itkisiz çatdırılır.**

**Bu cür müasir yollar qonaq-qaranı da razı salır. Şübhəsiz ki, Azərbaycanın, o cümlədən bölgələrə gələn xarici turistlərin sayının artmasının bir səbəbi də məhz yollarımızın rəvanlığıdır.**

**Uğurlu olun, yollar, a yollar...**

***“Azərbaycan”***
***Foto Ağaəli MƏMMƏDOVUNDUR***

# “Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 iyun tarixli 2861 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 11 iyun tarixli 2861 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 530; 2010, № 2, maddə 80; 2012, № 2, maddə 132, № 12, maddə 1295; 2014, № 2, maddə 112, № 5, maddə 477, № 11, maddə 1414; 2016, № 8, maddə 1384, № 9, maddə 1518) 1-ci hissəsi ilə yaradılmış komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

**“Komissiyanın həmsədri**

Azərbaycan Respublikasının maliyyə naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası energetika nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında fövqəladə və səlahiyyətli səfiri.”.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Səudiyyə Ərəbistanı Krallığı tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyul 2018-ci il*

# Fransanın “L'Hebdo Bourseplus” qəzeti Azərbaycan Prezidentinin bu ölkəyə səfərindən yazır


actualités
>> Interview
Le président de la République d'Azerbaïdjan annonce à l'Elysée un renforcement de ses relations économiques avec la France.
comprendre l'économie mondiale

Fransanın “L'Hebdo Bourseplus” qəzeti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə səfərindən bəhs edən məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, məqalədə jurnalist Yannik Ürryen Prezident İlham Əliyevin Fransaya səfəri, səfər çərçivəsində aparıcı fransız şirkətlərinin rəhbərləri ilə görüşləri haqqında ətraflı məlumat verib.

Bildirib ki, Azərbaycan Prezidenti ilə görüşlər zamanı enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq məsələləri diqqət mərkəzində olub.

Səfər çərçivəsində neft-qaz sektoru, kosmos, infrastruktur, hava nəqliyyatı daxil olmaqla nəqliyyat, metro tikintisi, kosmik fəza sənayesi, hərbi-texniki sahələri əhatə edən 11 böyük şirkət rəhbəri ilə çox məhsuldar görüşlər keçirilib. Görüşlərdə “Cənub qaz dəhlizi”nin əhəmiyyətindən danışılıb.

Qeyd edilib ki, iki ölkə arasında imzalanan sazişlərin həcmi 2 milyard dollardan çoxdur.

Yazıda Azərbaycan və Fransa prezidentlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı da fikir mübadiləsi apardıqları bildirilir. Qeyd edilir ki, Azərbaycan Prezidenti münaqişənin həlli ilə bağlı ölkəsinin mövqeyini bir daha açıqlayıb. Prezident İlham Əliyev ümidvarlıq ifadə edib ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransa Prezidenti şəxsən bu münaqişənin həllində fəal iştirak edəcək.

# Prezidentin tapşırıqları Cocuq Mərcanlıda uğurla icra edilir

## *Böyük Qayıdışın ilk ünvanında əhalinin məşğulluğunun təmini sürətlə həyata keçirilir*

*Əvvəli 1-ci səh.*



Nazir vurğulayıb ki, Cocuq Mərcanlı kəndində həyata keçirilən birgə layihələr Azərbaycan-Türkiyə dostluğunun daha bir nümunəsidir. Azərbaycanda regionların, xüsusilə sərhəd rayonlarının inkişafına böyük diqqət və qayğı göstərildiyini vurğulayan nazir birgə layihənin Cocuq Mərcanlının sosial-iqtisadi inkişafında və sakinlərin məşğulluğunun təmin olunmasında əhəmiyyətini qeyd edib. Bildirilib ki, burada məhsullar “Cocuq Mərcanlı” brendi altında istehsal olunacaq. İqtisadiyyat naziri assosiasiya rəhbərlərini və sahibkarları Cocuq Mərcanlıda layihələrin icrasına dəvət edib.

Türkiyənin Azərbaycandakı Səfirliyinin iqtisadiyyat müşaviri Can Memduh Erdem və Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin Bakı nümayəndəliyinin proqram koordinatoru Adəm Urfa iki qardaş ölkə arasındakı bütün əlaqələrinin uğurla inkişaf etdiyini, birgə layihələrin reallaşdırıldığını, Cocuq Mərcanlıda birgə icra olunan layihələrin bölgədə kənd təsərrüfatının inkişafında önəmini vurğulayıblar.

Cocuq Mərcanlı sakinləri göstərilən böyük diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər. Sonra tədbir iştirakçıları birgə həyata keçirilən layihələr çərçivəsində görülən işlərlə tanış olublar.

Qeyd edək ki, Cocuq Mərcanlıda hər biri 160 m² sahəyə malik 15 polietilen örtüklü tunel tipli istixana qurulub. İstixanalar damcı suvarma sistemi ilə təchiz olunub, istifadəçilərə toxum, gübrə və pestisidlər, bitkilərə qulluq üçün alət və avadanlıqlar verilib. Layihə iştirakçılarına tərəvəzin becərilməsi ilə bağlı 3 ay müddətində təlim və





məsləhət xidməti də göstəriləcək.

Birgə həyata keçirilən layihələr çərçivəsində həmçinin, Cocuq Mərcanlıda 15 ailənin hər birinə 10 arı ailəsi olmaqla 150 arı ailəsi verilib. Arı təsərrüfatlarının hər biri 10 ədəd iki mərtəbəli iyirmi çərçivəli yeşiklə, arıçılıq avadanlıqları və materiallarla, xəstəliklərə qarşı dərman vasitələri ilə təmin olunub.

Birgə layihənin birinci mərhələsi çərçivəsində 30-dan çox Cocuq Mərcanlı sakininin məşğulluğu təmin edilib.

Türkiyə ilə birgə layihələrin həyata keçirilməsi davam etdirilir. Belə ki, Cocuq Mərcanlıda daha bir layihənin - suvenir istehsalı müəssisəsinin tikintisinə başlanılıb. Müəssisədə istehsal sahəsi, sərgi zalı, yeməkxana və s. fəaliyyət göstərəcək. Müəssisənin bu ilin sonuna istifadəyə verilməsi nəzərdə tutulub. Burada da istehsal olunacaq məhsullar “Cocuq Mərcanlı” brendi ilə satışa çıxarılacaq.

Bunlarla yanaşı, Cocuq Mərcanlıda Türkiyə ilə daha bir birgə layihə çərçivəsində ilkin mərhələdə 150 başlıq cins heyvandarlıq kompleksinin yaradılması işlərinə başlanılıb. Birgə layihələrdə türkiyəli mütəxəssislərin təcrübəsindən də istifadə olunacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# *Mariya ZAXAROVA:* “Ölkələrimizin Xarici İşlər nazirlikləri arasında qarşılıqlı əlaqələr çox fəallaşıb”

Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin (XİN) İnformasiya və Mətbuat Departamentinin direktoru Mariya Zaxarova başda olmaqla bu qurumun nümayəndə heyəti xarici siyasətin informasiya təminatı məsələlərinə dair XİN-lərarası məsləhətləşmələr aparmaq üçün Bakıda səfərdədir. Məsləhətləşmələr çərçivəsində kütləvi informasiya vasitələri və sosial şəbəkələrlə iş, rəqəmsal diplomatiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib, qarşılıqlı maraq doğuran sahələrdə təcrübə mübadiləsi aparılıb. Mariya Zaxarova səfər çərçivəsində AZƏRTAC-a müsahibə verib. Həmin müsahibəni təqdim edirik.



*- Siz Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin bugünkü vəziyyətini necə qiymətləndirirsiniz, yüksək səviyyəli dialoq bu münasibətlərə necə təsir göstərir?*

- Ölkələrimiz arasında münasibətlər gözəl inkişaf edir. Bu, tarixən yoxlanılmış və müasir dövrdə inkişaf edən həqiqi dostluq münasibətləridir. Ölkələrimiz arasında münasibətlər bütün sahələrdə - həm humanitar, həm iqtisadi, həm də siyasi sahələrdə inkişaf edir. Sözsüz ki, bütün bunlar, ilk növbədə, ölkələrimizin rəhbərlərinin xidmətidir. Bu münasibətlərə onlar istiqamət verir, onlar bu münasibətləri dinamikləşdirir, necə deyərlər, “saatlarını qururlar”, lakin bununla bərabər, görülmüş işin nəticələrini də yoxlayır və gələcək inkişafın vektorunu müəyyən edirlər.

Bu gün XİN-lərarası məsləhətləşmələrdə bizim toxunduğumuz mövzulardan biri Rusiyanın və rusiyalıların nəzərində Azərbaycanın necə qəbul edilməsi məsələsi idi. Moskvada Azərbaycanı və Bakını sevirlər. Sizin dövlətinizin bütün uğurlarına görə Moskvada sevinirlər. O cümlədən son illərdə Bakının necə dəyişməsini buraya gələnlərin hamısı qeyd edir. Hamı bu barədə bir-birinə danışır. Bu, ikitərəfli münasibətlərin inkişafının bir cəhətidir. Bu münasibətlər təkcə siyasi tərkib hissə üzrə və ya məsələn, elm, yaxud biznes sahəsində inkişaf etməklə məhdudlaşmamalıdır. Əməkdaşlığın bütün tərəflərinin məcmusu ölkələrimizin xalqları üçün vacibdir. Moskva ilə Bakı arasında münasibətlər məhz bu cür inkişaf edir.

*- Avqustun 12-də Aktauda Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti sammiti keçiriləcək. Siz Xəzərin hüquqi statusu barədə Konvensiya imzalanması perspektivini necə qiymətləndirirsiniz və bu sənəd Xəzəryanı dövlətlər arasında mövcud fikir ayrılıqlarının aradan qaldırılmasında necə əks olunacaq?*

- Bizdə belə bir ənənə var: biz Prezident Administrasiyası xətti ilə rəsmən elan edilməyincə dövlət başçısının iştirakı ilə keçirilən sammitləri və tədbirləri şərh etmirik. Buna görə də həmin məsələ məhz Rusiya Federasiyası Prezidenti Administrasiyasının mətbuat xidməti tərəfindən işıqlandırılmalıdır. Lakin əlbəttə, bütün müvafiq sənədlərin, o cümlədən sizin dediyiniz sənədin hazırlanması illər boyu davam edib. Bu iş sadə olmayıb və çox intensiv olub. Məhz ondan ötrü ki, tərəflər regional sabitlik üçün, əlbəttə, iqtisadiyyat və region ölkələrinin inkişafı üçün bu sənədin nə dərəcədə gərəkli olduğunu və ona nə dərəcədə ehtiyac duyulduğunu anlasınlar. Buna görə irəli getmək və gündəliyi şərh etmək fikrində deyiləm. Bir daha deyirəm: mümkün olduqda bunu bizdən böyük yoldaşlar edəcəklər. Mən onu qeyd edə bilərəm ki, sammitə hazırlıq çox intensiv şəkildə, o cümlədən həm Xarici İşlər Nazirliyi xətti ilə, həm ikitərəfli və əlbəttə, həm də çoxtərəfli formatlarda gedir.

*- Ölkələrimizin Xarici İşlər nazirlikləri arasında əməkdaşlığın səviyyəsini necə səciyyələndirmək olar. Xarici siyasətin informasiya təminatı məsələlərinə dair XİN-lərarası məsləhətləşmələr aparılmasının formatı nə il bağlıdır?*

- Bizdə xarici siyasət idarələri arasında dialoq bütün istiqamətlər üzrə inkişaf edir, bu dialoq operativdir. Bu, elə protokol tədbiri deyil ki, onun çərçivəsində sadəcə formal müzakirə aparılsın, bu, bütün problemlərə dair canlı dialoqdur. Bizim nazirlər mütəmadi olaraq görüşür, müntəzəm telefon danışıqları aparırlar. Biz bu haqda informasiyanı müntəzəm dərc edirik. Həm ikitərəfli gündəliyə aid məsələlər, həm regional, həm də bütövlükdə beynəlxalq münasibətlər müzakirə və həll edilir. Buna görə də iki ölkənin XİN-ləri üzrə qarşılıqlı əlaqələr çox fəal inkişaf edir və bizim idarələrin mətbuat xidmətləri arasında artıq neçənci dəfədir ki, keçirilən məsləhətləşmələr buna daha bir sübutdur. Mənim fikrimcə, çox peşəkar, maraqlı və məzmunlu söhbət oldu, qarşılıqlı fəaliyyət və əməkdaşlıq haqqında maraqlı təkliflər irəli sürüldü. Buna görə işçi formatda normal canlı ünsiyyət hər hansı əlamətdar və ya protokol xarakterli hadisələrə dair sadəcə dialoq deyil. Bu gün bu, bir daha sübut olundu.

*- Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair Azərbaycan və Ermənistan rəhbərlərinin görüşü təşəbbüsü ilə çıxış etməyi planlaşdırırmı?*

- Bu, Rusiya XİN-ə çox tez-tez verilən suallardan biridir və mən dəfələrlə demişəm ki, belə əlaqələrə, ilk növbədə, hər iki tərəf maraq göstərməlidir. Rusiya öz vasitəçi rolu ilə həmişə bu tərəflərin yanındadır və iştirakçıların fikrincə, həmin rolun öhdəsindən uğurla gəlir. Biz ölkələrin özləri üçün məqbul olan və əlbəttə, konstruktiv məcrada gedən və müsbət nəticə verən dialoqun, qarşılıqlı fəaliyyətin, ünsiyyətin istənilən formalarını alqışlayırıq. Düşünürəm ki, bu, həm Azərbaycanda, həm də Ermənistanda yaxşı məlumdur, bizim mövqeyimiz ənənəvidir, lakin görünür, bu kursu ardıcıl olaraq həyata keçirən Rusiyanın güclü tərəfi də bundadır.

*- Mariya Vladimirovna, siz necə düşünürsünüz, iki ölkə arasında mədəni-humanitar münasibətlər necə inkişaf edir?*

- Dünən bunu yəqin etməyə imkan oldu ki, mədəni-humanitar əməkdaşlığın daha bir tərkib hissəsi praktikada necə həyata keçirilir. Xüsusən Bakıda start götürmüş “Jara” festivalını nəzərdə tuturam. Açığını deyim, bu festival barədə çox eşitmişdim, lakin onun miqyasını heç təsəvvür etmirdim. Dünən gördüklərim məni heyran etdi. Mənim iri beynəlxalq tədbirlər və musiqi festivalları barədə təsəvvürüm var, lakin Rusiyanın və qonşu ölkələrin estrada ulduzlarını dörd günlüyə Bakıda toplamağı mənim fikrimcə yalnız Emin bacarar, çünki səmimi deyirəm, bunun analoqlarını görməmişəm. Nəyə görə mən bu barədə danışıram. Axı, söhbət təkcə o insanları toplamaqdan getmir. Söhbət bu tədbiri elə təşkil etməkdən gedir ki, həm tamaşaçılar məmnun olsun, həm də artistlər hədsiz çox olmalarına və hamısının ulduz olmasına baxmayaraq, özlərini əsl ulduz kimi hiss etsinlər.

Daha bir mühüm məqam. Dünən fikir vermişəm ki, ifaçıların çoxu özlərini göstərmək üçün çox yaxşı imkana və məkana malikdirlər. Bu, böyük işdir. Ona görə ki, ulduzların özlərini təsdiq etməsinə ehtiyac yoxdur. Hamı onları sevir, hamı onlara pərəstiş edir. Gənclərin irəli çıxması kifayət qədər çətin məsələdir, çünki rəqabət çox yüksəkdir və Azərbaycan tərəfin bu cür festivallar təşkil etməsi onlara böyük imkanlar yaradır. Əlbəttə, insanlar arasında sərhədləri aşan bu ünsiyyət mənim üçün informasiya mütəxəssisi kimi də maraqlı idi, çünki paralel olaraq translyasiyalar gedirdi, paralel olaraq müsahibələr yazılır, çəkilişlər aparılırdı. Bunları sonradan televiziya ilə göstərəcək, radiostansiyalarda səsləndirəcəklər. Bu festivalda iştirak edən ölkələrdə jurnallar bu barədə yazacaq, buraya gəlmiş artistlər belə bir ümumi mədəni məkan yaradacaqlar. Bəli, bunlar müasir musiqi nümunəsində olacaq, lakin bu, çox vacibdir, ona görə ki, iştirakçılar əsasən gənclərdir. Lakin bu, məsələnin yalnız bir tərəfidir.

Bizim humanitar münasibətlərimiz müxtəlif sahələrdə inkişaf edir - təhsil, tələbə mübadiləsi. Yeri gəlmişkən, bu gün bu imkandan da istifadə etdim və azərbaycanlı həmkarlarımızı, Azərbaycandan olan jurnalistləri Rusiyaya dəvət etdim. Biz press-turlar təşkil etməyə hazırıq. Əlbəttə, mən çox yaxşı başa düşürəm ki, azərbaycanlıların Rusiyanı kəşf etməsinə ehtiyac yoxdur. Lakin press-turlar məhz ondan ötrü təşkil edilir ki, regionların administrasiyalarının nümayəndələri ilə, bu və ya digər məsələyə cavabdeh olan rəsmi şəxslərlə ünsiyyətdə olmaq imkanı yaransın. Buna görə biz azərbaycanlılara və ya Azərbaycan xalqına Rusiya haqqında danışmaq baxımından deyil, Azərbaycanın kütləvi informasiya vasitələrinə müəyyən maraqlı və aktual məsələləri işıqlandırmaq üçün press-turlar təşkil etməyə hazırıq və Azərbaycan KİV-ini məmnuniyyətlə dəvət edirik. Bu da əməkdaşlığın bir tərəfi. Ümumiyyətlə, bu istiqamətdə çox iş görülür və əlbəttə, əla perspektivlər var.

*- Avqust ayında Moskvada Rusiya-Azərbaycan-İran sammiti keçirilməlidir. Bu görüşün gündəliyində hansı məsələlər var?*

- Bir daha demək istəyirəm, sammitlərin tarixini və digər təfərrüatını mən şərh edə bilmərəm. Bu sammit yeni formatlardan biridir. O, nisbətən yaxın vaxtda yaranıb, lakin daha bir dialoq imkanı kimi, müxtəlif mövzuların müzakirə edilməsi üçün məkan kimi özünü çox yaxşı cəhətdən göstərib. Buna görə də həmin format, əlbəttə, inkişaf edəcək. Əgər belə formatlar varsa və onlar inkişaf edirsə, sammitlər bu formatda mümkün olan görüşlərin ən ali nöqtəsi, ən yüksək formasıdır. Lakin bu xətt üzrə dialoq diplomatlar, bizim səfirliklər, Xarici İşlər nazirlikləri səviyyəsində inkişaf edir. Sammitin özünə gəldikdə isə bunu şərh etmək hələ tezdir.

# Əhalinin məşğulluq probleminin həlli ardıcıl xarakter daşıyır

## Bu ilin birinci yarısında ölkədə 67 min yeni iş yeri yaradılıb

*Əvvəli 1-ci səh.*

Daimi iş yerlərinin bir hissəsi yeni yaradılmış, eləcə də mövcud və fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda açılıb. Əsas hissəsi - 74,2 faizi isə fərdi sahibkarlıq subyektləri tərəfindən yaradılıb. Bu, dövlətin sahibkarlığın inkişafına yönəltdiyi tədbirlərin bir nəticəsidir ki, özünü həm də əhalinin işlə təmin olunmasında göstərir. Yəni dövlətdən hərtərəfli dəstək alan sahibkar öz işini daha uğurlu qurduqca, fəaliyyətini genişləndirdikcə ətrafına daha çox əməkçi toplayır, beləliklə, onların dolanışığı təmin olunur.

Bununla belə, Azərbaycanda hələ də daimi iş axtaran vətəndaşlar var. Ona görə də dövlət yeni iş yerlərinin açılması prosesini ardıcıl davam etdirir.

Nazirlər Kabinetinin bu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əhalinin məşğulluğu barədə danışılarkən bağlanmış iş yerlərinin təhlilinin aparılmasının vacibliyi də vurğulanıb. Qeyd edilib ki, iş yerlərinin hansı səbəblərdən bağlandığı araşdırılıb öyrənilməlidir. Eyni zamanda aydınlaşdırılmalıdır ki, həmin iş yerlərini itirmiş vətəndaşların məşğulluğu təmin edilib, ya yox. Bu faktın özü də göstərir ki, əhalinin məşğulluq probleminin həlli ardıcıl xarakter daşıyır və dövlətin daim hərtərəfli diqqət mərkəzindədir.

Aparılan təhlillər nəticəsində məlum olub ki, keçən il bağlanan iş yerlərinin 81,6 faizi qeyri-dövlət sektorunun payına düşür. 70,1 faizi fərdi sahibkarlıq subyektlərinin, 12,1 faizi isə müəssisə və təşkilatların fəaliyyətinin dayandırılması səbəbindən bağlanıb. Qalan iş yerlərinin itirilməsi fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılan ixtisarlarla əlaqədar olub.

Müasir dövrdə əhalinin işlə təminatının bir yolu da özünüməşğulluq proqramının həyata keçirilməsidir. Bu proqram bir neçə cəhətdən təqdirəlayiqdir. Onun yerinə yetirilməsi iqtisadi inkişafa təkan verməklə bərabər bölgələrdə əhalinin məşğulluğuna kömək edir. Ən başlıcası isə insanları ələbaxımlıq vərdişindən çəkindirir. Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev bu barədə demişdir: “Özünüməşğulluq proqramını icra etmək üçün indi kifayət qədər vəsait var. Hesab edirəm ki, hər il 6-7 min insan bu proqrama cəlb olunarsa, bir neçə ildən sonra heç sosial yardıma da ehtiyac qalmayacaq və insanlar öz halal zəhmətləri ilə pul qazanacaqlar, ailələrini saxlayacaqlar və ölkə iqtisadiyyatına töhfələrini verəcəklər”.

Bu sahədə görülən əməli tədbirlərdən biri də qeyri-formal məşğulluqla mübarizədir. Qeyd edək ki, qeyri-formal məşğulluq bütün ölkələrdə mövcuddur. Baxır ki, hansı ölkədə onunla necə mübarizə aparılır. Azərbaycanda qeyri-formal məşğulluğa qarşı ciddi tədbirlər görülür. Bunun müsbət nəticəsi ölkə iqtisadiyyatına böyük dəstək verəcək.

Bir sözlə, bütün tədbirlər ölkə vətəndaşının sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına yönəldilib. Nazirlər Kabinetinin sözügedən iclasında Prezident İlham Əliyev bunu bir daha bəyan edib: “Sosial cəhətdən az təmin edilmiş vətəndaşlara dövlət həmişə öz dəstəyini göstərəcək. Bizim siyasətimiz bundan ibarətdir və vətəndaşlar narahat olmasınlar. Dövlət həmişə onların arxasında olacaq”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***




# İqtisadi müstəqillik davamlı tərəqqinin təminatçısıdır

## Reytinq agentliklərinin Azərbaycan iqtisadiyyatının 2022-ci ildə 3,5 faizədək artacağını proqnozlaşdırması uğurlu islahatların göstəricisidir

*Əvvəli 1-ci səh.*

Hesabatdan da göründüyü kimi, sözügedən beynəlxalq indeks tərəfindən Azərbaycanda aparılan həm hüquqi qanunvericilik, habelə biznes mühitinin əlverişliyinin daha da yaxşılaşdırılması istiqamətində islahatlar məxsusi olaraq qeyd edilib. Bu, beynəlxalq reytinq agentliklərinin Azərbaycanda aparılan islahatlara xüsusi diqqət yetirdiklərini və izlədiklərini göstərir.

### MDB-də daim lider olan dövlət

Azərbaycanın mövqeyinin dünyanın ən mötəbər reytinqlərində irəliləməsi bilavasitə Prezident İlham Əliyev tərəfindən aparılan kompleks iqtisadi islahatlar siyasətinə beynəlxalq ictimaiyyətin verdiyi yüksək qiymətdir.

Bu, ötən il Dünya İqtisadi Forumu tərəfindən nəşr olunan "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda da öz əksini tapdı. Azərbaycan növbəti dəfə reytinqdə irəlilədi. Ölkəmiz 137 dövlət arasında iki pillə irəliləyərək 35-ci yerdə qərarlaşdı. Həmçinin həmin hesabatda Azərbaycan əmək bazarının səmərəliliyi üzrə 9 pillə irəliləyərək 17-ci yeri tutdu. Ölkəmiz artıq 8 ildir ki, sözügedən hesabatda MDB ölkələri arasında 1-ci yerdədir.

Bir faktı xüsusi qeyd etmək lazımdır ki, hətta G20-yə daxil olan İtaliya, Rusiya, İndoneziya, Türkiyə, Hindistan, Cənubi Afrika Respublikası kimi ölkələr bu rəqabət indeksinə görə Azərbaycandan geridədirlər. Region ölkələrinə gəldikdə isə, qonşu Gürcüstan həmin reytinqə görə 67-ci yerdə, işğalçı Ermənistan isə 73-cü yerdə qərarlaşdı.

Əlbəttə ki, bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə biznes mühiti üzrə aparılan uğurlu iqtisadi islahatların nəticəsidir. Faktiki olaraq dünyanın iki ən nüfuzlu iqtisadi yönümlü hesabatında Azərbaycanın inamla irəliləməsi ölkəmizdə aparılan davamlı və sistemli islahatların uğuruna dünya ictimaiyyətinin verdiyi yüksək qiymətdir. Ölkəmizin reytinqinin yaxşılaşması Azərbaycana investisiya axını, iqtisadiyyatın rəqabət qabiliyyətinin artması, qeyri-neft ixracının genişlənməsi və yeni iş yerlərinin açılması deməkdir.



### İqtisadiyyata yatırılan investisiyaların həcmi yüksəlir

Bir faktı da xatırladaq. Ötən il Azərbaycanın adı nüfuzlu "Standard&Poor's" (S&P) beynəlxalq reytinq agentliyinin də hesabatında ön sıralarda qərarlaşdı. Belə ki, qurumun yaydığı məlumatda qeyd edilirdi ki, 2018-ci il Azərbaycan iqtisadiyyatında artım olacaq. Sənəddə 2019-2020-ci illərdə Azərbaycanda illik ümumi daxili məhsul (ÜDM) istehsalının artımının 3,5 faiz səviyyəsində olacağı proqnozlaşdırılıb. 2019-cu ildə ÜDM-in 3,5 faiz, 2020-ci ildə də 3,5 faiz artacağı göstərilib. Bundan başqa, Azərbaycan iqtisadiyyatına yatırılan investisiyaların həcminin 2018-ci ildə 3,5 faiz, 2019-cu ildə 2,5 faiz, 2020-ci ildə isə 2,5 faiz artacağı qeyd edilmişdi.

Agentliyin hesabatında göstərilirdi ki, 2017-2020-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldo qorunacaq. Belə ki, 2018-ci ildə ÜDM 12,7 faiz, 2019-cu ildə 14,3 faiz, 2020-ci ildə 14,8 faizə bərabər olacaq.

### Ölkə sənayesində canlanma müşahidə olunacaq

Rusiyanın AKRA reytinq agentliyi yeni hesabatını açıqlayıb. Sənəddə bu il Azərbaycan iqtisadiyyatının 1,5 faiz, 2022-ci ildə isə ÜDM-in 3,2 faizədək artacağı proqnozlaşdırılır.

Agentlik qeyd edir ki, 2016-cı ildə iqtisadiyyatın resessiyasından və 2017-ci ildə 0,1 faiz nominal artımdan sonra Azərbaycan iqtisadiyyatı 2017-2018-ci illərdə xaricdə mütərəqqi bərpa nümayiş etdirdi. Hesabatda bildirilir ki, 2018-ci ilin ikinci yarısında ölkə sənayesinin xammal hissəsində də canlanma müşahidə olunacaq.

Sənəddə o da qeyd edilir ki, Azərbaycan qazının TANAP boru kəməri ilə Türkiyəyə, daha sonra Avropaya tədarükünü nəzərdə tutan "Cənub qaz dəhlizi" sisteminin nəql gücünün istismara verilməsi Azərbaycanın tədiyə balansını yaxşılaşdırmağa, iqtisadiyyatın xammal hissəsinin artım göstəricisini möhkəmləndirməyə imkan verəcək.

### Tam müstəqil siyasətin bəhrəsi

Bütün göstəricilərə əsasən deyə bilərik ki, 2018-ci il Azərbaycan üçün uğurlu il olacaq. Təsadüfi deyil ki, artıq beynəlxalq reytinq də ölkəmizin vəziyyətinin yaxşı olduğunu göstərir və respublikamız daha yüksək yerlər tutmaqda davam edir. Bu, onu göstərir ki, Azərbaycan iqtisadiyyatı harmonik inkişaf edir və şaxələnmişdir. Bu da ölkədə tam müstəqil siyasətin aparılmasının bariz nümunəsidir.

Ümumiyyətlə, çox doğru olaraq Azərbaycan iqtisadiyyatı inklüziv iqtisadiyyat kimi səciyyələndirilir. Başqa sözlə desək, Prezident İlham Əliyevin nümayiş etdirdiyi siyasi iradəyə uyğun olaraq ölkəmizdə güclü iqtisadi inkişaf dərin məzmunlu sosial siyasətlə tamamlanır. Bütün ölkə boyu infrastrukturun ən yüksək standartlar səviyyəsində yenidən qurulması, əhalinin rifahının yaxşılaşdırılmasına yönəldilən tədbirlərin miqyasının il-bəil genişləndirilməsi Azərbaycanın sosial dövlət kimi mənzərəsini göz önündə canlandırır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərtidir. Bu baxımdan ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində taxılçılıq da sürətlə inkişaf etməyə başlamışdır. Bu sahənin intensiv inkişafı bir çox sahələrin, o cümlədən heyvandarlığın inkişafına da müsbət təsir göstərmişdir. Bunu yaxşı bilən fermerlər dövlətin göstərdiyi hər cür qayğıdan bəhrələnərək son illər əkin sahələrini xeyli genişləndirmişlər.



# Qazax taxılçıları bol məhsul yetişdirmişlər

## *Hər hektardan orta məhsuldarlıq 38 sentnerdir*



Hər il taxılçılıq sahəsində yüksək göstəricilərə nail olan Qazax rayonunun fermerləri bu il də zəmilərdə bol məhsul yetişdirmişlər.

Keçən il rayonda 8 min 289,2 hektarda buğda, 2750,6 hektarda arpa əkilmişdir. Arpa sahələrinin hər hektarından orta hesabla 24,1 sentner, buğda sahələrinin hər hektarından isə 36 sentner məhsul götürülmüşdür. Qazanılan bu uğur fermerləri ruhlandırmış, əkin sahəsi genişləndirilərək 12 min 629 hektara çatdırılmışdır. Səpin aparılmış sahələrin 3527 hektarı arpa, 9 min 102 hektarı buğdadır. Hazırda buğda biçini sürətlə davam etdirilir və bu sahədə heç bir problem yaşanmır. Artıq arpa biçini uğurla başa çatdırılmışdır.

Onu da qeyd edək ki, rayonda taxıl biçininə hazırlıqla bağlı tədbirlər planı hazırlanmışdır. Biçindən qabaq rayon taxılçılarının, eləcə də bu sahəyə xidmət göstərən xidmət təşkilatları rəhbərlərinin iştirakı ilə müşavirə keçirilmiş, biçin zamanı qarşıya çıxan problemlərin operativ surətdə həll edilməsi üçün xüsusi qərargah yaradılmışdır. Hazırda zəmilərdə 26 kombayn işləyir. Hər gün biçilmiş sahələrin hesabatları aparılır. Hələlik hər hektardan orta məhsuldarlıq 38 sentnerdir. Lakin bu göstəricinin bir qədər də artacağı gözlənilir.

Ümumiyyətlə, rayonun 19 kəndinin ərazisində taxıl əkilmişdir. Onlardan birində - Daş Salahlı kəndində fermer Asif Yusifovun zəmisinə baş çəkdik. Fermer dedi ki, keçən il 80 hektarda taxıl əkmişdir. Əldə olunan yüksək göstərici əkin sahəsini genişləndirərək 100 hektara çatdırmağa həvəs yaratdı. Bu il də biçilən buğda yüksəkkeyfiyyətlidir. Nəzərdə tutulub ki, əldə olunan taxılın 250 tonunu yüksək kondisiyalı toxum kimi respublikamızın müxtəlif rayonlarına sataq. Bunun üçün təsərrüfatda hər cür şərait var.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İşi və qazancı olan vətəndaşın dövlətin sosial yardımına ehtiyacı olmur

## *Bu, əhalinin sosial müdafiəsinin ən ədalətli həlli yoludur*

Demokratik inkişaf yolu seçən dövlətin ən ali vəzifələrindən biri əhalinin sosial müdafiəsini təmin etmək, həyat səviyyəsinin daha da yüksəldilməsinə nail olmaqdır. Azərbaycanda əhalinin sosial müdafiəsi üçün qəbul edilən qanunlar, dövlət başçısı tərəfindən imzalanan fərman və sərəncamlar, görülən tədbirlər sözügedən sahədə ölkəmizdə mühüm nəticələrə gətirib çıxarmaqla yanaşı, insanların maddi rifah halının yüksələn xətt üzrə inkişafında da önəmli rol oynayır. Buna baxmayaraq, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən siyasət günün tələbinə uyğun olaraq daim təkmilləşdirilir.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında əhalinin sosial müdafiəsinin dövlət üçün önəmli olduğunu vurğulayaraq demişdir: "Sosial cəhətdən az təmin edilmiş vətəndaşlara dövlət həmişə öz dəstəyini göstərəcək. Bizim siyasətimiz bundan ibarətdir və vətəndaşlar narahat olmasınlar. Dövlət həmişə onların arxasında olacaq... Əlbəttə ki, ağır vəziyyətdə yaşayan, hələ də işsiz olan vətəndaşlar üçün biz yeni şərait yaratmalıyıq. Azərbaycanda iş yerlərinin yaradılması prosesi daim aparılmalıdır. ...58 min yeni daimi iş yeri açılmışdır. Ancaq, eyni zamanda, 20 mindən çox iş yeri bağlanmışdır. Əlbəttə, bu rəqəmə baxanda görərik ki, yenə də dinamika müsbətdir".

Eyni zamanda dövlət başçısı bildirmişdir ki, bağlanan iş yerlərinin səbəbləri təhlil edilməlidir. Belə halların aradan qaldırılması üçün dövlət qurumları müvafiq tədbirlər görməli, iş yerlərini itirən vətəndaşlarla aidiyyəti dövlət təşkilatları maraqlanmalı və onların işlə təmin edilməsinə çalışmalı olduqlarını deyən Prezident sahibkarları da yeni iş yerləri açmağa təşviq edir. Çünki ölkəmizdə sahibkarlıq fəaliyyəti üçün lazım olan bütün şərait yaradılıb və onlar bunun əvəzini verməlidir.

Bununla dövlət başçısı əhalinin sosial müdafiəsinə həssaslıqla yanaşdığını, sosial təminat sahəsində ciddi islahatların aparılmasını, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyindən buraxılmış səhvlərin qısa zamanda düzəldilməsini, sosial ədalətin və şəffaflığın təmin edilməsini tələb edir. Məqsəd hər bir Azərbaycan vətəndaşının sosial hüququnun ədalətli şəkildə qorunmasıdır.

Azərbaycanda əhalinin sosial müdafiəsinin müxtəlif formalarından istifadə edilir. Bunlardan biri əhalinin özünüməşğulluğunun təminidir. Dövlətin qəbul etdiyi özünüməşğulluq proqramı uğurla icra edilərək müsbət nəticələrini verir. Bunun üçün büdcədən kifayət qədər vəsait ayrılır. Məqsəd bu yolla 6-7 min vətəndaşı proqrama cəlb edərək onların məşğulluğunu təmin etməkdir. Çünki işi olan və pul qazanan vətəndaşın dövlətin sosial yardımına ehtiyacı olmur. Bu isə əhalinin sosial müdafiəsinin ən ədalətli yoludur.

Bu gün ölkə üzrə statistikada göstərilən rəsmi işsizliyin səviyyəsi, demək olar ki, bir qədər qeyri-dəqiqdir. Ona görə ki, ölkədə qeyri-formal məşğulluq kütləvi xarakter daşıyır. Bəzi sahibkarlar işçilərinin sayını gizlətməklə Dövlət Sosial Müdafiə Fonduna pul köçürməkdən və vergi ödəməkdən yayınırlar. Buna görə də sosial sahədə şəffaflığın və beynəlxalq təcrübənin tətbiq edilməsi vacibdir. Düzdür, son dövrlər ölkə rəhbərinin tapşırığı ilə bu sahədə olan nöqsanların aradan qaldırılması üçün ciddi işlər görülür. Amma görünür, onların kəsəri hələ istənilən nəticəni əldə etməyə kifayət etmir. Odur ki, bu cür tədbirlər həm keyfiyyət, həm kəmiyyətcə artırılmalıdır.

Ölkədə mövcud iqtisadi inkişafın dinamikası əhalinin gəlirlərinin artmasına da təkan verir. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-may aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrünə nisbətən 4 faiz artaraq 541 manat təşkil edib. Əməkhaqqı neft sektorunda 3184,6, qeyri-neft sektorunda 480,7 manat olub. Bu dövrdə dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 421,5, özəl müəssisələrdə 703,9 manata çatıb. Hesabat dövründə mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı ölkə üzrə orta göstəricidən yüksək olub.

Əhalinin gəlirlərinə gəldikdə, cari ilin yanvar-iyun aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,3 faiz artıb və hər nəfərə orta hesabla 2623,8 manat gəlir düşüb. Bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında keçən ilin eyni dövrü ilə müqayisədə 9,8 faiz çox vəsait qalıb.

Əhalinin sosial məsələlərinin həlli ilə paralel sosial infrastruktur layihələri də həyata keçirilir. Cari ildə 137 modul tipli məktəbin tikilməsi, Bakıda 12 məktəbin əsaslı təmiri, ölkə üzrə 6 xəstəxananın istifadəyə verilməsi, eyni zamanda 4 min məcburi köçkün ailəsinin mənzillə təmin olunması nəzərdə tutulub. Bunlardan əlavə, ölkə üzrə qazlaşdırmanın ilin sonunadək 95 faizə çatdırılması proqnozlaşdırılır. Həmçinin cari ildə nəzərdə tutulan plana görə, 2 min kilometr yeni avtomobil yolunun salınması gözlənilir. Bununla ən azı 600 kəndin sakinləri yeni salınan yoldan istifadə edəcək. Sevindirici haldır ki, Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, yol infrastrukturunun səviyyəsinə görə Azərbaycan dünyada 36-cı yerdədir. Bu, istər keçmiş SSRİ məkanında, istərsə də dünyada yüksək göstərici sayılır.

Su ilə təminat əhali üçün önəmli sosial məsələlərdən biridir. Son dövrlər əhalinin içməli su və suvarma suyu ilə təminatı istiqamətində mühüm işlər görülüb. Xüsusilə içməli suya ehtiyacı olan bölgələrə su xətləri çəkilir, sutəmizləyici qurğular quraşdırılır, artezian quyuları qazılır, şəhər və rayonlarda kanalizasiya sistemi qurulur. Yeri gəlmişkən qeyd edək ki, cari ildə ehtiyacı olan 100 min hektar torpaq sahəsinə su verilməklə yanaşı, 300 subartezian quyusunun qazılması da planlaşdırılıb. Artıq artezian quyularından 175-i istifadəyə verilib.

Ümumiyyətlə, son illər Azərbaycanda həyata keçirilən sosial infrastruktur layihələri sayəsində minlərlə təhsil, səhiyyə, mədəniyyət, idman və digər sosial obyektlər tikilərək əhalinin istifadəsinə verilib. Bununla yanaşı, enerji verilişi və qaz xətləri yenidən çəkilib və ya əsaslı şəkildə təmin edilib, yeni yollar və körpülər salınıb. Xüsusilə kənd yollarının tikilməsi layihəsinin icrası pis vəziyyətdə olan yolların müasir standartlar səviyyəsinə çatmasını təmin edib. Bütün bunlar dövlətin vətəndaşların sosial rifahının yaxşılaşmasına yönələn siyasətinin uğurlu nəticəsidir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

*Məlumdur ki, hər bir ölkə bazar münasibətlərini inkişaf etdirmək üçün daha çox xarici investisiya cəlb etməyə çalışır. Çünki xarici investorlar ölkə ərazisinə kapitaldan savayı müasir təcrübə və biliklər də gətirirlər. Həm də bu səbəbdən dünyanın iqtisadı müstəvisində gərginliklərin və qarşıdurmaların artması ilə birlikdə xarici kapitalın cəlb edilməsi uğrunda rəqabət də güclənir. Son onilliklərdə bu üsul və mexanizmlərdən özünü ən çox doğruldanı azad iqtisadi zonaların yaradılmasıdır. Bu mövzu getdikcə aktuallaşır və azad iqtisadi zonalar müxtəlif ölkələrdə uğurla fəaliyyət göstərir.*

## Dünya təcrübəsi



# İnvestisiyanın özünü sərbəst hiss etdiyi məkan - azad iqtisadi zona

18 may 1973-cü il tarixli Kioto Konvensiyasına əsasən, azad zonada mallar milli gömrük sərhədlərindən kənarda sayılır, gömrük nəzarətinə, rüsum və vergilərə cəlb edilmir. Artıq ötən əsrin 90-cı illərində dünyada çoxsaylı və müxtəlif növlü azad iqtisadi zona fəaliyyət göstərirdi. İkinci minilliyin sonuncu ilində isə dünya əmtəə dövriyyəsinin 30 faizi müxtəlif azad iqtisadi zonaların payına düşürdü. Günü bugünədək beynəlxalq korporasiyalar, transmilli şirkətlər azad iqtisadi zonalardan gəlirlərini artırmaq üçün əsas amil kimi istifadə edirlər.

Beynəlxalq təşkilatların hesabatlarında "azad iqtisadi zona" termin kimi istifadə edilsə də, göstərilən zonaların mahiyyətini tam ifadə etmir. Çünki tətbiq edilən iqtisadi qaydalar, alətlər və qanunlar müəyyən hüquqi və təsərrüfat rejimini saxlamaqla sadəcə qaydaları yüngülləşdirir və güzəştləri sahibkarlığın inkişafına yönəldir. Azad iqtisadi zonaların inkişafı üçün ölkədə siyasi sabitlik, yüksəksəviyyəli qanunvericilik bazasının mövcudluğu, inkişaf etmiş infrastruktur, əlverişli təbii-coğrafi mühit və iqtisadi konyunkturun olması investorları cəlb edən amillərdir. Bundan başqa, vergi, maliyyə, inzibati və xarici ticarət güzəştləri də xüsusi əhəmiyyət kəsb edir.

Dünyada azad iqtisadi zonaların geniş növləri mövcuddur. Azad ticarət zonaları (Free trade zones) iqtisadi zonaların dünyada ən geniş yayılmış növüdür və onun iki əsrlik tarixi var. Ən qədimləri XIX əsrdə Almaniyanın Hamburq və Bremen şəhərlərində yaradılmış zonalar hesab olunur. Azad (rüsumsuz) gömrük zonaları (Free customs zone) isə XVII-XVIII əsrlərdən mövcuddur. Buna baxmayaraq, ixrac-istehsal zonaları (Export-production zones) ikinci nəsil azad iqtisadi zonalara aid edilən sənaye-istehsal zonalarının ən geniş yayılmış növüdür. "Avropa pələngi" sayılan İrlandiyada ilk ixrac-istehsal zonası 1959-cu ildə yaradılmışdır. XX əsrin 70-80-ci illərində isə belə zonalar Tayland, Banqladeş, Şri-Lanka, Pakistana gəlib çatmışdır. 1990-cı ildə inkişaf etməkdə olan ölkələrdə 260-dan çox yeni tipli ixrac-istehsal zonaları iri elm mərkəzlərinin ətrafında formalaşmağa başlamışdır. XX əsrdə baş vermiş elmi-texniki inqilabın təkan verdiyi bu cür zonalar azad elmi-texniki zonalar (Free scientific-technical zones) da adlandırılır.

Əlbəttə, bir yazıda azad iqtisadi zonanın çoxsaylı və mürəkkəb növləri haqqında ətraflı məlumat vermək çətindir. Amma bu sırada ABŞ, Yaponiya və Çində geniş yayılan elmi-texniki zonaları mütləq qeyd etmək lazımdır. Belə zonalar Yaponiyada texnopolislər, ABŞ-da və Çində texnoparklar adlandırılır. Dünyada ilk dəfə 1950-ci ildə ABŞ-da Stenford Universitetində elmi-texniki park yaradılmışdır. Onların sayı 1990-cı illərin sonunda 170-i keçmiş, ümumi sahəsi 2600 hektara qədər artmışdır. Avropada belə parklar 1970-ci illərin sonlarında Böyük Britaniyada, Belçika və Fransada meydana gəlmişdir. Almaniya isə bu işə 1983-cü ildən qoşulmuşdur. Ümumiyyətlə, Avropa İttifaqı üçün texnoparkların yaradılması xüsusi əhəmiyyət kəsb edir və bu quruma üzv dövlətlər zəruri innovasiya mühitinin yaradılmasında, elmin istehsala təsirinin güclənməsində texnoparklardan ciddi faydalanırlar.

Texnoparkların yaradılması qabaqcıl ölkələrdən tədricən inkişaf etməkdə olan dövlətlərə (Braziliya, Hindistan və d.) keçmişdir. Təsadüfi deyil ki, ötən əsrin sonuna yaxın dünyada texnoparkların sayı 7 mindən çox olmuşdur. Dünyanın ən məşhur texnoparkı ABŞ-ın "Silikon vadisi"dir. 20 mindən artıq işçisi olan bu texnopark ümumdünya kompüter hesablama texnikası vasitələri istehsalının 20 faizini verir.

Texnoparkların əsas təşkilati formaları belədir:

*- elmi parklar - universitetlərin, elmi-araşdırma mərkəzlərinin yaxınlığında araşdırma obyektlərinin inkişafı və tətbiqi məqsədilə yaradılır və istehsalla məşğul olmurlar;*

*- innovasiya mərkəzləri - bazarda nisbətən böyük risklə bağlı olan yeni texnologiyaların reallaşdırılması ilə məşğul olan sahibkarlara araşdırma, texnologiya, maliyyə və kommersiya fəaliyyəti məsələləri üzrə məsləhətlər verir;*

*- kommersiya parkları - istehsalla, müxtəlif növ kommersiya fəaliyyəti, müxtəlif sərgilərin təşkili, hazır məhsulun qablaşdırılması və satışı ilə məşğul olur.*

Ölkəmizə gəldikdə, Azərbaycanda xüsusi iqtisadi zonaların təşkil olunması üçün dünya təcrübəsi dərindən araşdırılaraq ətraflı öyrənilmişdir. Hələ 2007-ci ildə "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında" dövlət başçısı tərəfindən fərman imzalanmış, 2009-cu ildə "Xüsusi iqtisadi zonalar haqqında" qanun qəbul edilmişdir. Həmçinin Prezidentin 2010-cu il 20 aprel tarixli fərmanı ilə "Xüsusi iqtisadi zonanın operatorunun seçilməsi üzrə müsabiqənin keçirilməsi Qaydaları" təsdiq olunmuşdur. Dövlət başçısının imzaladığı sonuncu sənəd Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi də daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqındadır. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə faktiki olaraq azad iqtisadi zonaların müxtəlif formaları əsasında və təbii ki, müvafiq güzəştlər tətbiq edilməklə işləyən yerli və xarici şirkətlər fəaliyyət göstərirlər. Bu şirkətlər Azərbaycan hökumətinin tətbiq etdiyi geniş güzəştlər sistemindən ciddi faydalanırlar. Dövlət başçısının imzaladığı sonuncu sənəd bu işin artıq yeni mərhələyə keçməsindən xəbər verir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# "Daşkənd" sərhəd zastava kompleksi istifadəyə verilib





Dövlət Sərhəd Xidməti ölkəmizin sərhəd mühafizə infrastrukturunun təkmilləşdirilməsi, müasir tələblərə cavab verən yeni sərhəd məntəqələrinin tikilib istifadəyə verilməsi, sərhədçilərin xidmət və məişət şəraitinin yaxşılaşdırılması tədbirlərini müvəffəqiyyətlə davam etdirir.



Dünən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsində yeni inşa edilmiş "Daşkənd" sərhəd zastavası kompleksinin xidməti istifadəyə verilməsi bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlərin növbəti ifadəsidir.

Bu münasibətlə keçirilən mərasimdə Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqəti sayəsində Dövlət Sərhəd Xidmətinin bütün hərbi hissə və bölmələrində şəxsi heyət üçün yüksək xidməti və məişət şəraitinin yaradıldığını qeyd etmişdir. Ardıcıl həyata keçirilən tədbirlər sayəsində Azərbaycan Sərhəd Mühafizəsinin mükəmməl inkişaf yolu keçərək qarşıya qoyulan hər bir tapşırığı layiqincə yerinə yetirməyə qadir olan hərbi qurum səviyyəsinə yüksəldiyi xüsusi vurğulanmışdır. General-polkovnik Elçin Quliyev Azərbaycan sərhədçisinin dövlətçiliyimizin və sərhədlərimizin keşiyində ayıq-sayıq dayandığını, Dövlət Sərhəd Xidmətinin bütün şəxsi heyəti üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməyin böyük şərəf və yüksək məsuliyyət olduğunu bildirmişdir.

Tədbirdə iştirak edən Yardımlı Rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov sərhədçiləri təbrik edərək onlara uğurlar arzulamışdır.

Mərasimdə xidmətdə yüksək nəticələr göstərmiş hərbi qulluqçulara mükafatlar təqdim olunmuşdur.

Rəmzi lent kəsildikdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev qonaqlarla birlikdə sərhəd zastavasına baxış keçirmişdir. Burada müasir tələblərə uyğun yeni inşa edilmiş sərhəd zastavasında xidmətin yüksək səviyyədə təşkili və sərhədçilərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Zabit və gizir ailələri üçün inşa olunmuş mənzillər, müasir tələblərə cavab verən xüsusi təyinatlı otaqlar, yeməkxana, istirahət guşəsi, təlim şəhərciyi, mərkəzləşdirilmiş istilik və işıqlandırma sistemləri, hamam-camaşırxana və digər vasitələrlə təmin olunmuş, ərazidə abadlaşdırma işləri görülmüşdür.

Sərhəd zastavasını fasiləsiz enerji ilə təmin etmək məqsədilə pilot layihə olaraq Azərbaycan istehsalı olan günəş elektrik stansiyası quraşdırılmışdır. Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə birgə həyata keçirilən bu pilot layihənin uğurla gerçəkləşdirilməsi gələcəkdə mürəkkəb relyef şəraitinə malik olan digər ucqar sərhəd zastavalarının da enerji təminatının bərpa olunan enerji mənbələri hesabına həyata keçirilməsinə imkan verəcəkdir.

Mürəkkəb relyefə malik yüksək dağlıq və meşəlik ərazidə inşa olunmuş yeni sərhəd zastavasında yaradılan şərait sərhədçilərə ilin bütün fəsillərində, o cümlədən şaxtalı-boranlı qış aylarında xidməti daha yüksək səviyyədə təşkil etməyə geniş imkanlar yaradacaqdır.

*"Azərbaycan"*

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

İyulun 27-də iqtisadiyyat naziri Şahin Mustafayev Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Füzuli, Cəbrayıl və Beyləqan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbula gələnlər güzəştli kreditlərin verilməsi, heyvandarlıq, Cocuq Mərcanlı qəsəbəsinə suvarma suyunun çəkilməsi, Füzuli rayonunun Zobucuq-3 qəsəbəsində xalçaçılıq emalatxanasının, özünüməşğulluq proqramı çərçivəsində ailə təsərrüfatının yaradılması, sosial və s. məsələlərlə bağlı müraciət ediblər.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri nazir Şahin Mustafayev tərəfindən diqqətlə dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nazirliyin müvafiq qurumlarına konkret tapşırıqlar verilib.

İqtisadiyyat Nazirliyinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciət edən vətəndaşlara ətraflı izahat verilib, bu müraciətlər aidiyyəti strukturlara çatdırılması üçün qeydiyyata alınıb.

Eyni zamanda, qəbula gələn sahibkarların təklifləri müzakirə edilib, heyvandarlıq, quşçuluq, bitkiçilik və s. sahələr üzrə investisiya layihələrinin güzəştli kreditlər hesabına maliyyələşdirilməsi barədə müvafiq göstərişlər verilib.

İqtisadiyyat naziri tərəfindən Füzuli, Cəbrayıl və Beyləqan rayonlarından olan vətəndaşlarla yanaşı, digər şəhər və rayonlardan olan və qəbul zamanı birbaşa müraciət edən vətəndaşlar da qəbul edilib, onların müraciətlərinə diqqətlə yanaşılıb, müraciətlərin operativ həlli üçün müvafiq tədbirlər görülüb.

* * *

İyulun 27-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Şabran şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Şabran, Quba, Qusar, Xaçmaz, Siyəzən və Xızı rayonlarının sakinlərini qəbul edib.

Qəbul zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, tullantıların idarə olunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin monitorinqi, suvarma-içməli su problemləri və s. məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər.

* * *

İyulun 27-də Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov Oğuz Rayon Prokurorluğunun inzibati binasında Oğuz, Qəbələ, Şəki, Qax, Balakən və Zaqatala rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda baş prokuror Zakir Qaralov bölgədə yaşayan 21 vətəndaşın müraciətini dinləyib. Müraciətlərdə qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

Qəbulda vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

* * *

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev iyulun 27-də İmişli, Saatlı, Sabirabad, Biləsuvar rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlərlə görüşüb.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən görüş İmişli Rayon Mədəniyyət Evində təşkil olunub.

Dövlət komitəsinin sədri müxtəlif məsələlərlə bağlı müraciət edən məcburi köçkünləri ayrı-ayrılıqda dinləyib. Müraciətlər əsasən, mənzil təminatı, işə qəbul, kommunal xidmətlər və digər sosial problemlərin həlli ilə bağlı olub. Bütün müraciətlər müvafiq qaydada qeydə alınıb. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Dövlət komitəsinin sədri digər müraciətlərin qısa müddətdə araşdırılması və müvafiq tədbirlər görülməsi üçün tapşırıqlar verib.

# Ordubad rayonunda Rabitə Evinin və Yeni Nəsil Telekommunikasiya Sisteminin açılışı olub

İyulun 27-də Ordubad rayonunda Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sistemi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Huawei" şirkətinin Mərkəzi Asiya və Qafqaz ölkələri üzrə vitse-prezidenti James Chen açılışı bildirən lenti kəsiblər.




Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov çıxış edərək deyib ki, bu gün muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur. Naxçıvanın beynəlxalq transavrasiya fiber optik magistrallarına ikitərəfli çıxışı təmin edilib. "Azərspace" peyki üzərindən isə 3-cü alternativ rabitə kanalları yerləşdirilib. Hazırda muxtar respublikanın əsas və alternativ magistral telekommunikasiya xətlərinin 1600 kilometri fiber optik xətlərdir. Fiber optik kabel xətləri üzərində qurulan iritutumlu telekommunikasiya şəbəkələri elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin təşkilinə imkan verir. Muxtar respublikanın hazırda qlobal internet sisteminə dördtərəfli çıxışı vardır. Bütün yaşayış məntəqələri genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətləri ilə təmin edilib. 2010-cu ildən muxtar respublika ərazisində mövcud telefon sisteminin rekonstruksiyasına başlanmışdır. Bugünə qədər layihənin 4 mərhələsi başa çatdırılıb. Ordubad rayonu ərazisində mövcud avtomat telefon stansiyalarının rekonstruksiyası da bu sahədə görülən işlərin davamıdır.

"Huawei" şirkətinin Mərkəzi Asiya və Qafqaz ölkələri üzrə vitse-prezidenti James Chen çıxış edərək deyib: "Naxçıvanda yeni texnologiyaların tətbiqi sahəsində böyük nailiyyətlər qazanılıb. Ordubad rayonunda yeni nəsil telekommunikasiya sistemlərinin açılışı bunu bir daha təsdiq edir. "Huawei" şirkəti Azərbaycanda fəaliyyətinə 16 il bundan əvvəl - 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə əməkdaşlıqla başlayıb. Muxtar respublikada əhalini yüksəksürətli mobil və stasionar internetlə təmin edən 4G mobil şəbəkəsinin, məhdud fiziki imkanlı uşaqlar üçün distant təhsil sisteminin qurulması, 18 tələbənin Çin Xalq Respublikasında təlim keçməsi, "Qədim və müasir Naxçıvan" kitabının çapı uğurlu əməkdaşlığın nəticəsidir".

Ordubad Rayon Rabitə İdarəsinin əməkdaşı Dilşad Məmmədova deyib: "Mən uzun illərdir ki, rabitə sahəsində çalışıram. Kollektivimiz heç vaxt bugünkü qədər müasir və rahat iş şəraiti ilə təmin olunmayıb. İstər müasir binanın tikilib istifadəyə verilməsi, istərsə də yeni nəsil telekommunikasiya sistemlərinin qurulması muxtar respublikada rabitənin inkişafına göstərilən qayğının ifadəsidir. Artıq Ordubad rayonunun bütün yaşayış məntəqələrində insanlar ən müasir rabitə xidmətindən istifadə edəcəklər".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad rayonunda Rabitə Evinin və 11 min 300-dən artıq nömrə tutumu olan 35 yeni nəsil telefon stansiyasının istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirib, bu münasibətlə Ordubad rayonunun əhalisini təbrik edərək deyib: "Ölkəmizdə bütün sahələr inkişaf edir. Bu inkişafın nəticəsidir ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuşdur. Ordubad rayonunda istifadəyə verilən yeni nəsil telefon stansiyaları dünya səviyyəli şirkət olan "Huawei" şirkətinin ən müasir avadanlıqları hesabına qurulmuşdur. Bu da ölkəmizin inkişafının göstəricisidir. Bu inkişafa isə ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi xəttin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində nail olunmuşdur. Çünki ölkəmizdə iqtisadi inkişaf, sabitlik və dövlətin sosialyönümlü siyasəti olmasaydı, bu işləri həyata keçirmək də mümkün olmazdı".



Ali Məclisin Sədri deyib: "Yeni nəsil telefon stansiyası abunəçilərə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet, qapalı virtual şəbəkələr və 23 adda əlavə servis xidmətləri göstərilməsinə imkan verəcəkdir. Qurulan yeni sistem inkişaf etmiş ölkələrdə də tətbiq olunur. Bu isə bir daha təsdiq edir ki, Azərbaycan dünyanın inkişaf edən müasir ölkələri sırasındadır. Bu gün Ordubad rayonunun rabitə sahəsində dönüş günüdür. Ona görə ki, istifadəyə verilən Rabitə Evindən, 35 yeni nəsil telefon stansiyasından və poçt bölmələrindən Ordubad rayonunun əhalisinin hamısı istifadə edəcəkdir".

Ali Məclisin Sədri müasir rabitə sistemlərinin qurulmasında göstərdikləri dəstəyə görə "Huawei" şirkətinin kollektivinə muxtar respublika hökuməti və əhalisi adından təşəkkürünü bildirib.

Məlumat verilib ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada Ordubad Rayon Rabitə İdarəsi və "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Ordubad rayon filialı üçün lazımi iş şəraiti yaradılıb. Rabitə Evində 16 iş otağı, server, "Naxtel" müştəri xidmətləri bölməsi, xidmət zalı, növbətçi otağı, bağlamalar və qəzet-jurnallar üçün 2 otaq, arxiv, 56 yerlik zal, 1792 nömrə tutumlu yeni nəsil avtomat telefon stansiyası, bufet və qazanxana yerləşir. "Naxtel" müştəri xidmətləri bölməsində nömrələrin satışı və qeydiyyatı, eyni zamanda, sakinlərin mobil rabitə ilə bağlı müraciətləri qəbul olunur.

Hazırda rayon üzrə 35 avtomat telefon stansiyası vasitəsilə 8 min 261 abonentə rabitə xidməti göstərilir. Rayonda Mərkəzi Poçt və 25 kənd poçt məntəqəsi fəaliyyət göstərir. Bütün poçt məntəqələri kompüterləşdirilib və POS-terminallar quraşdırılıb. Poçt bölmələrində ənənəvi xidmətlərlə yanaşı, kommunal ödənişlərin, üzvlük haqlarının, sığorta haqlarının, dövlət yol polisi cərimələrinin, bələdiyyə rüsumlarının və kredit ödənişlərinin aparılması, pensiya və sosial yardımların paylanması təşkil olunub. Bundan başqa, poçt məntəqələrində itmiş əşyaların sahibinə çatdırılması, elektron imzanın sertifikat xidməti və "Naxtel" müştəri xidmətləri fəaliyyət göstərir.

Ali Məclisin Sədri Ordubad rayonu ərazisində qurulan Yeni Nəsil Telekommunikasiya Sistemini işə salıb.

Sonra "Huawei" şirkətinin baş vitse-prezidenti xanım Ami Linin video-müraciət vasitəsilə təbrikləri təqdim olunub.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov Yeni Nəsil Telekommunikasiya Sistemi barədə məlumat verib. Qeyd olunub ki, bu gün muxtar respublikada istismar olunan 190 avtomat telefon stansiyasından 151-i və ya 80 faizi yeni nəsil texnologiyalara əsaslanır. Abunəçilərin 84 faizi yeni nəsil telefondan istifadə edir.

Ali Məclisin Sədri bina ilə tanışlıqdan sonra kollektivlə görüşüb, yaradılan şəraitdən səmərəli istifadə olunması ilə bağlı müvafiq tapşırıqlar verib.

# Bakıda "Qadın Sahibkarlığı: inkişaf perspektivləri və əməkdaşlıq" mövzusunda "dəyirmi masa" keçirilib



İyulun 27-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Rusiyanın Həştərxan vilayətinin "İşgüzar Qadınlar" Assosiasiyasının təşkilatçılığı ilə Bakıda "Qadın Sahibkarlığı: inkişaf perspektivləri və əməkdaşlıq" mövzusunda "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Həştərxan vilayəti ilə Azərbaycan arasında münasibətlərin dinamik inkişaf etdiyini deyib. Qeyd edib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Həştərxan vilayətində bir sıra işgüzar, humanitar və sosial layihələr icra olunur. Bu ilin may ayında Həştərxanda Azərbaycan Biznes Mərkəzinin açılışı işgüzar və dostluq münasibətlərinin potensialının genişlənməsinə imkan verir.

Hicran Hüseynova bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan ilə Rusiya arasındakı əlaqələrin möhkəmlənməsinə mühüm töhfələr verirlər. Dostluğun möhkəmlənməsində və Həştərxan vilayətində müxtəlif layihələrin həyata keçməsində Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya Azərbaycanlı Gənclər Birliyinin sədri Leyla Əliyevanın rolunu da xüsusi qeyd etmək lazımdır.

Azərbaycan cəmiyyətində qadınların rolundan bəhs edən komitə sədri qeyd edib ki, qadın ana kimi gələcək nəsli formalaşdırır. İnsanlığın necə olması qadının savadından, sosial statusundan asılıdır. Bu məsələ bizim ölkəmizdə hər zaman aktual olub. Məsələn, 1901-ci ildə bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb Bakıda yaradılıb. Həmçinin 1911-ci ildə Xədicə Əlibəyovanın redaktorluğu ilə ilk dəfə qadın mətbu orqanı yaradıldı. "İşıq" qəzeti qadınların hüquqlarının qorunması, onların maariflənməsi üçün bütün ziyalı vətəndaşları səfərbər etdi. 1918-ci ildə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda qadınlara seçmək və seçilmək hüququ verilib.

Diqqətə çatdırılıb ki, gender siyasətinin gücləndirilməsi dövlət strategiyasının əsas istiqamətlərindən biridir. 1998-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə postsovet məkanında ilk dəfə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi təsis edilib. Prezident İlham Əliyevin fərmanı ilə 2006-cı ildə bu komitənin səlahiyyətləri genişlənərək Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Hicran Hüseynova bildirib ki, son illər ərzində qadın sahibkarlarının sayı 28 faizə qədər artıb. Onların arasında holdinq və böyük maliyyə kompaniyalarının rəhbərləri var. "Biz bu rəqəmlərin artırılmasında maraqlıyıq və ölkəmizdə qadın biznesinin inkişafı üçün böyük işlər görülür. Nümunə kimi Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə "Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı" texniki yardım, "Regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi" layihələrini qeyd etmək olar",- deyə komitə sədri vurğulayıb.

Həştərxan regionu "İşgüzar Qadınlar" Assosiasiyasının üzvü İrina Brıntseva deyib ki, Azərbaycanda sahibkar qadınların fəaliyyətləri bir çox dövlətlər üçün nümunədir. Azərbaycan ilə Rusiya arasındakı münasibətlərdən danışan İrina Brıntseva qeyd edib ki, Həştərxan vilayətini Azərbaycan ilə sıx dostluq əlaqələri birləşdirir. Azərbaycanda ölkənin inkişafı üçün böyük işlər görülür. Sosial məsələlərə böyük diqqət ayrılır, Azərbaycanın bu təcrübəsini gələcək inkişaf üçün öyrənmək olar.

AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev qurumun fəaliyyəti haqqında ətraflı məlumat verib. Vurğulayıb ki, "Made in Azerbaijan" brendi altında bir çox tədbirlər keçiririk və bu tədbirlərdə sahibkar qadınlar fəal iştirak edirlər. Dövlətimiz tərəfindən qadın sahibkarlığının inkişafına yüksək qiymət verilir. Bu sahədə böyük islahatlar həyata keçirilir. Y.Abdullayev qeyd edib ki, iki ay bundan əvvəl Həştərxanda Azərbaycan Biznes Mərkəzi açılıb. Açılış çərçivəsində sərgi də təşkil edilib. Həmin sərgidə bir çox Azərbaycan şirkətlərinin məhsulları təqdim olunub.

Azərbaycan Sahibkar Qadınlar Assosiasiyasının sədri Səkinə Babayeva və digərləri çıxış edərək tədbirin məqsədindən danışıblar. Bildirilib ki, bu tədbirin məqsədi qadınlar arasında sahibkarlığın təşviqini təmin etməkdir.

Qeyd edilib ki, son illər ölkəmizdə bu istiqamətdə aparılan siyasət uğurlu nəticələr verir. Prezident İlham Əliyevin imzaladığı sənədlər, qəbul etdiyi qərarlar sahibkarlığın inkişafına böyük dəstək verir. Həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən sosial layihələr də qadın sahibkarlığının inkişafına müsbət təsir göstərir.

Sonda Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası ilə Həştərxan vilayətinin "İşgüzar Qadınlar" Assosiasiyası arasında əməkdaşlıq memorandumu imzalanıb.

# Leyla ƏLİYEVA: “Jara-2018”in iştirakçılarına və tamaşaçılarına gözəl vaxt keçirməyi arzu edirəm





İyulun 27-də - “Jara-2018” Beynəlxalq Musiqi Festivalının ikinci günündə iştirakçılar qırmızı xalının üzərindən keçiblər.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva festivalın fəxri qonaqlarının arasında olub.

Əvvəlcə xalq artisti Emin Ağalarov və övladı qırmızı xalının üzərindən keçiblər.

Bəstəkar və müğənni Emin Ağalarov “Jara-2018”in də iştirakçılar və tamaşaçılar üçün yaddaqalan olacağını vurğulayıb. Qeyd edib ki, tamaşaçıların festivala marağı ifaçıları ilhamlandırır. Mən hamıya xoş anlar arzu edirəm.

Tədbirin aparıcısı qırmızı xalının üzərindən keçən Leyla Əliyevanı festivalın muzası kimi təqdim edərək onda bu qədər müsbət emosiyanın olmasına heyran qaldığını bildirib. Leyla Əliyeva deyib: “Özümü çox xoşbəxt hesab edirəm. Sizinlə ünsiyyətdə olanda daha çox sevinirəm. Zənnimcə, siz işinizi ideal səviyyədə yerinə yetirirsiniz. Dünən çox gözəl idi. Əminəm ki, bu gün də belə olacaq. Hamıya gözəl axşam və cansağlığı arzu edirəm. Sağ olun”.

Xalı üzərindən keçəndən sonra jurnalistlərin suallarını cavablandıran Leyla Əliyeva deyib ki, festival barədə təəssüratım çox zəngin və gözəldir. Ən başlıcası odur ki, hamı xoşbəxtdir, hamı sevinir. Görün, nə qədər qonaq var, onların hamısı bizim Bakı şəhərinə məftun olublar. Bütün ifaçıları dinləmək istəyirəm. Hamının rəqs etdiyini görmək çox xoşdur.

Qırmızı xalıdan Sergey Kojevnikov ailəsi ilə, eləcə də Qriqori Leps, The Jigits qrupu, Sevda Ələkbərzadə, Soqdiana, Stas Pyexa, Darya Antonyuk, Kristina Orbakayte, Filip Kirkorov, Valeriya, Araz Ağalarov, həyat yoldaşı, qızı və digərləri keçiblər.

Fəxri qonaq qismində xanımı ilə qırmızı xalının üzərindən keçən Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, “Jara-2018” beynəlxalq musiqi festivalı çox gözəl təşkil olunub. Bu festivalın çox gözəl ölkədə, heyrətamiz Bakı şəhərində keçirilməsi onun əhəmiyyətini daha da artırır. Bizim Rusiya ulduzları bir neçə günlüyə buraya gəlir və onlar çox zəngin təəssüratla qayıdırlar. Beləliklə, biz bir-birimizi yada salırıq. Müasir dünyada bu, çox vacib amildir.

Dörd ildir ki, Bakıda olmadığını vurğulayan Dmitri Peskov deyib: “Bakı ecazkar şəhərdir. Mən onu sevirəm”.

Azərbaycanın xalq artisti Emin Ağalarov bu gün Leonid Aqutinin, Vladimir Presnyakovun və Valeriyanın yubiley gecələrinin keçiriləcəyini bildirib.

Qırmızı xalı üzərindən keçən ifaçılar Bakı və festival haqqında təəssüratlarını bölüşüb, yaradıcılıq yeniliklərindən söz açıblar.

Festivalın təşkilatçıları müğənni və bəstəkar, xalq artisti Emin Ağalarov, Rusiyanın əməkdar artisti Qriqori Leps, “Russkoye radio”nun və “Qızıl qrammofon” mükafatının təsisçisi Sergey Kojevnikovdur.

# “Jara-2018”in ikinci gününün konserti də tamaşaçılar üçün musiqi bayramına çevrildi

İyulun 27-də “Jara-2018” Beynəlxalq Musiqi Festivalının ikinci gününün konserti də tamaşaçılar üçün əsl musiqi bayramına çevrildi.




AZƏRTAC xəbər verir ki, “Jara”nın ikinci günündə Rusiyanın xalq artisti Valeriyanın, Rusiyanın əməkdar artisti Leonid Aqutinin, müğənni və bəstəkar Vladimir Presnyakovun yaradıcılıq gecələri keçirildi.

“Jara”nın ikinci günündə də bir çox tanınmış müğənnilər tamaşaçıların qarşısına çıxdılar. Festivalın iştirakçılarının sayı ildən-ilə artmaqdadır. Həmçinin festivalı dörd gün ərzində “Sea Breeze Resort”da canlı izləyənlərin sayı isə minlərlədir. “Jara-2018”in davam edəcəyi növbəti günlərdə də tamaşaçıları maraqlı konsert proqramı gözləyir.

Bu il festivalda iştirak edən azərbaycanlı ifaçıların da sayı artıb. Belə ki, Sevda Ələkbərzadənin, Samir Bağırovun çıxışları tamaşaçılara xoş anlar yaşatdı.

Səhnəyə çıxan Filip Kirkorov həmişəki kimi, tamaşaçı auditoriyası ilə sıx ünsiyyətdə olması ilə fərqləndi. O, qonaqpərvərliyə görə Azərbaycan xalqına təşəkkür etdi, gələn il bir daha bu festivala həvəslə gələcəyini söylədi. Ənənəvi olaraq bu dəfə də yeni mahnı təqdim etdi. İfaçının “Ne veryu ya” mahnısı alqışlarla qarşılandı.

Festivalın ikinci günü həm ayrı-ayrı ifalar, həm də duetlərlə yadda qaldı. Dünya şöhrətli estrada ulduzları yubilyarların repertuarlarından mahnılar səsləndirdilər.

Guzel Xasanova, Anjelika Varum, Nikolay Baskov, Jasmin, Leonid Aqutin və Lyubov Uspenskayanın, Valeriya və Kristina Orbakaytenin duetləri, Ani Lorakın, Qlükozanın çıxışları, Valeriya və Nikolay Baskovun, Valeriya və Sofiyanın, Aleksey Çumakov və Yuliya Kovalçukun, Stas Pyexa və İrina Dubtsovanın, EMIN və Keti Topuriyanın duetləri, The Jigits və A`Studio qruplarının eyni səhnəni bölüşməsi, Yuliana Karaulovanın, Natalinin, Slavanın, Vladimir Presnyakovun ifaları və digər çıxışlar alqışlarla qarşılandı.




Bir-birindən maraqlı musiqi nömrələri ilə çıxış edən müğənniləri alqışlayan Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dedi: “Xahiş edirəm, indi Aya baxın. Bu gün ən uzun Ay tutulması günüdür. İndi Mars Ayın üzünü örtür. Belə hadisə 25 milyon ildə bir dəfə baş verir. Əlbəttə, bu, təsadüfi deyil. Bakıya xoş gəlmisiniz. Sağ olun”.

Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) idarə heyətinin üzvü Emin Hacıyev deyib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, AMOR-un sədri Leyla Əliyevanın dəvəti ilə Azərbaycanda səfərdə olan Rusiya Federasiyasının bir qrup dövlət qulluqçularından, qeyri-hökumət gənclər təşkilatlarının təmsilçilərindən və ali məktəblərin tələbələrindən ibarət nümayəndə heyətinin üzvləri də “Jara-2018” festivalının ikinci günündə konsert proqramını izləyənlər arasında olublar. Konsert proqramı rusiyalı qonaqlarda xoş təəssürat oyadıb. Onlar fasilə zamanı Leyla Əliyeva ilə görüşərək ona xatirə hədiyyəsi təqdim ediblər.

Qeyd edək ki, bu maraqlı musiqi bayramı üçün Xəzərin sahilində məxsusi olaraq möhtəşəmliyi ilə diqqəti çəkən və müxtəlif videoinstalyasiyaları nümayiş etdirməyə imkan verən səhnə qurulub.

Konsert proqramında musiqi ilə yanaşı, xoreoqrafiya səhnəcikləri, fərqli dekorasiyalar, işıq və lazer şousunun təqdimatı tamaşaçıların zövqünü oxşadı. Bir sözlə, təşkilatçıların ən xırda detalları belə nəzərə almaları, müasir səhnə tərtibatı, məşhur müğənnilərin bir-birindən gözəl mahnıları gözlənildiyi kimi, “Jara”nı unudulmaz anlar, xoş xatirələr və əsl bayram tədbirinə çevirdi.

Aparıcıları Yana Çurikova və Nikolay Baskov olan festivalın ikinci günü də atəşfəşanlıqla başa çatdı.

# Şəki festivallar şəhəridir




Uzun illərdir ki, Şəki fərqli festivallara ev sahibliyi edir. Onlardan biri cari ildə keçirilən IX Beynəlxalq “İpək Yolu” Musiqi Festivalıdır. Azərbaycan Mədəniyyət Nazirliyi, Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən budəfəki festival Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə təsadüf etmişdir.





Şəki Regional Mədəniyyət İdarəsinin rəisi Mirvari Zeynalova dedi ki, bu tədbirə Türkiyə, Qazaxıstan, Özbəkistan, Hindistan və digər ölkələrin musiqiçiləri ilə yanaşı, Azərbaycan Dövlət Sərhəd Xidmətinin və Şəkinin yerli “Zirvə” ansamblı da qatılmışdı.

Belə tədbirlər qədim məkanın daha geniş miqyasda tanınmasına, turistlərin cəlb olunmasına kömək göstərir. Bu cəhəti nəzərə alaraq Şəkidə turizmin təbliği yönümündə məqsədyönlü təşkilati və əməli işlər görülür.

Digər tərəfdən, Şəki özünəməxsus təbiəti və spesifik xüsusiyyətləri ilə fərqlənən nadir bölgədir. Buranın əlverişli təbii-coğrafi şəraiti, çoxəsrlik yaşa malik tarixi, mədəniyyət və arxeoloji abidələri, zərif ipəyi, yerli əhalinin incə yumoru və zəngin mətbəxi var.

Son illər rayonda çox sayda mehmanxanalar, kottec, istirahət mərkəzləri və digər sosial obyektlər də inşa olunub.

Turizm obyektlərinə, xüsusilə də beynəlxalq turizm marşrutuna daxil olan tarix və mədəniyyət abidələrinə aparan yollar vaxtaşırı təmir edilir, körpülər salınır. Küçə, meydan və xiyabanlarda turizm marşrutlarına daxil olan obyektlərin ünvanı və onlar haqqında digər məlumatlar yazılan lövhələr vurulub, bir çox turizm obyekti yerləşən ərazilərin xəritələri asılıb.

M.Zeynalova deyilənlərə onu da əlavə etdi ki, bu ilin may ayında Şəkidə Beynəlxalq Teatr Festivalı da keçirilib. Bu tədbir iki ildən bir təşkil olunur. “Sərhədsiz teatr” III Şəki Beynəlxalq Teatr Festivalı may ayının 12-dən 19-dək davam etdi. Festival ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 və milli peşəkar teatrın yaradılmasının 145 illiyinə həsr olunmuşdu.

Festivalın Təşkilat Komitəsinə iştirak üçün dünyanın müxtəlif ölkələrindən - Rusiya, Qazaxıstan, Gürcüstan, Ukrayna, Meksika, Kolumbiya, Argentina, Fransa, İsrail, İtaliya, Mərakeş, Küveyt, Makedoniya və İrandan 60-dan yuxarı təklif daxil oldu.

“Sərhədsiz teatr” festivalında iştirak etmək istəyən kollektivlərin çoxluğunu nəzərə alaraq onun iki istiqamətdə - milli və beynəlxalq mərhələdə keçirilməsi qərara alındı. Milli Teatr mərhələsinə respublika teatrlarının Sumqayıt, Xırdalan, Lənkəran, Mingəçevir, Xaçmaz, Yevlax, Ağdam, Bərdə, Ağstafa, Zaqatala, İsmayıllı və Göygöl bölgələrinə səfərləri daxil edildi.

Festivalın Beynəlxalq mərhələsində Acto Teatro Columbiya Teatrının Q.Q.Markesin “Məsum Erendira”, Meksikanın La Kvinta Teatrının “Yeddi rəngin tanrısı”, İrandan Benderabbas Şəhər Teatrının V.Şekspirin “Maqbet” və Muğun-Hünər Teatrının M.Məhdəbinin “Canavar”, Gürcüstandan Muvement Teatrının V.Şekspirin “Fırtına”, Rusiyanın Kazan Müstəqil Teatrının “Əlif” və V.Txapsayev adına Şimali Osetiya Dövlət Akademik Teatrının uşaqlar üçün “Möcüzələr ölkəsində” tamaşaları ilə çıxışları təqdim olunub.

Həmin vaxtlarda təşkil olunan Şirniyyat festivalı da cəlbediciliyi, fərqliliyi ilə olduqca xoş təsir bağışlayıb.

Hazırda Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Bölgələrdən-bölgələrə” yaradıcılıq festivalı keçirilir. Şəki Regional Mədəniyyət İdarəsi 15 regionda mətbəxini, sənətkarlığını, folklorunu nümayiş etdirir. Tədbirə iyunun 25-dən Masallı rayonunda start verilib. Salyan, Sabirabad, Füzuli, Ağdam, Göyçay, Mingəçevir, Göygöl və Naftalanda tədbirlər başa çatıb. Festival avqustun 4-də böyük bayram konserti ilə yekunlaşacaq.

*Əli SƏLİMOV,*
*“Azərbaycan”*

# Ermənistanın xarici siyasəti böyük sürətlə iflasa uğrayır

## Paşinyan iqtidarının uğursuzluğu işğalçı ölkənin təcridini daha da dərinləşdirir

Sosial-iqtisadi müstəvidə böyük tənəzzül yaşayan Ermənistanda xarici siyasət sferasında da böhran müşahidə olunur. Xüsusilə yeni hakimiyyət dəyişikliyindən sonra ölkənin Rusiya ilə pisləşən münasibətləri Ermənistan üçün fəlakət sayılır. Məsələnin bu tərəfinə nəzər salan “Qraparak” qəzeti yazır ki, bu vəziyyətdə Ermənistanın eks-prezidenti Robert Koçaryan yenidən siyasətlə məşğul olmaq üçün ölkəyə qayıdacaq: “O, ölkəyə təkcə 1 mart qırğını ilə bağlı dindirilmədə iştirak üçün gəlmir. Koçaryanın hədəfi siyasətə girməkdir. Belə ki, Rusiya zamanında Serj Sarkisyandan narazı idi, indi isə Nikol Paşinyan onu qane etmir.

Moskvanın Paşinyanın yerini Koçaryana ötürəcəyi ilə bağlı proqramın olması istisna edilmir. Koçaryanın zəmanət verilmiş toxunulmazlığı var. Ciddi əsaslar olmadan Koçaryanın toxunulmazlığını ləğv etmək mümkün deyil. Bunun üçün isə bir neçə il ərzində gərgin iş görülməlidir”.

Bu arada qeyd edək ki, Ermənistanın Gümrü şəhərində yerləşən Rusiyaya məxsus 102-ci hərbi bazanın əsgərlərinin son təlimi Moskva və Yerevan arasında kəskin ziddiyyətlərin mövcudluğunu tam şəkildə üzə çıxarıb. Hərbçilərin “KamAZ” yük avtomobilləri ilə kəndə girərək avtomat silahlardan havaya atəş açması işğalçı ölkə ilə Rusiya arasında qalmaqala səbəb olub. Qeyd edək ki, hadisə Şirak vilayətinin Panik kəndində baş verib. Rusiya hərbçiləri kəndə qəflətən girərək yerli sakinlərin başı üstündən atəş açıblar. Ermənistanın bəzi nəşrlərinin yazdığına görə, insanlar təlaş içində öz evlərində gizlənməyə başlayıb, küçədə oynayan uşaqlar isə şok vəziyyətinə düşüb. Bəzi kənd sakinləri müharibə başladığını düşünərək panika içində qaçmağa üz tutublar.

Kənd icmasının rəhbəri Vardan Makeyan “Aravot” qəzetinə bildirib: “Otuza qədər əsgər kəndin yolunu kəsdi, öz kalonlarını saxladı, eləcə də səslər, atəşlər! Yaxşı ki, patronlar döyüş patronları deyildi. Bu səslərdən sonra bütün əhali evlərindən çıxıb qaçdı, hətta uşaqlar arasında ürəyi gedənlər oldu”.

Makeyan bildirib ki, kəndin ərazisindən heç vaxt hərbi poliqon kimi istifadə olunmamışdı və Rusiya hərbçilərinin heç bir xəbərdarlıq etmədən təlim adı altında kəndə basqın etməsi yerli əhaliyə təhqirdir: “Yaxşı, başa düşdük hərbi baza var, sağ olun, qoruyursunuz, amma bu o demək deyil ki, gəlib kəndin içində döyüş əməliyyatı qurasınız!”

Onu da bildirək ki, Ermənistan hökumətinin son iclasında 102-ci hərbi bazanın bir qrup hərbçisinin Panik kəndinə daxil olaraq atəş açması müzakirə olunub. Nikol Paşinyan bildirib ki, bu insidentə görə Rusiya hərbi bazasında məsuliyyət daşıyanların hamısı cəzalandırılmalıdır: “Bəyan etmək istəyirəm ki, bu, sadəcə olaraq, yolverilməz insidentdir. Mən bunu Rusiya-Ermənistan dostluq münasibətlərinə qarşı təxribat və Ermənistanın suverenliyinə qəsd sayıram”.

Baş nazir bildirib ki, insidentin hansı prosedurla araşdırılmalı olduğu aydınlaşdırılmalıdır. Bu məsələyə Rusiya hərbi bazasına dair müqavilə və Ermənistan qanunvericiliyi çərçivəsində baxılmalıdır: “İstənilən halda, polis insidentlə bağlı materiallar hazırlayır və sonrakı təhqiqatın effektli olmasına ümid edirəm”.

Lakin hərbi bazanın komandiri, polkovnik Vladimir Yelkanov Panik kəndində heç bir hadisənin olmadığını bildirib. Hadisə baş verəndən sonra Humanitar İnkişafa Təşəbbüs adlı beynəlxalq təşkilat gənclər təşkilatlarının nümayəndələrini Gümrüdəki hərbi bazaya aparıb. Həmin tədbirdə çıxış edən bazanın komandiri bildirib ki, Panik kəndində hərbçilərin atəş açması hərbi təlimin bir hissəsi olub: “Təlimlə bağlı əvvəlcədən Ermənistan hakimiyyətinə məlumat verilib”.

Versiyalar var ki, rəsmi Yerevan təlimlər haqqında kənd camaatına bilərəkdən məlumat verməyib. Məqsəd narazılığın yaranması və bu narazılıqdan çıxış edərək rus ordusunun ölkədən çıxarılmasına əsas yaratmaqdır. Beləliklə, bu ölkədə proseslər getdikcə daha maraqlı xarakter alır və Rusiya ilə Ermənistan arasında vəziyyətin kəskinləşməsi müşahidə olunur. Bunu Ermənistanın müdafiə naziri David Tonoyanın yeni açıqlaması da təsdiq edir. Tonoyanın dediklərindən belə bəlli olur ki, Ermənistan Rusiya ilə hərbi müstəvidə əlaqələri yenidən nəzərdən keçirməyi düşünür.

O bildirir ki, Rusiya Federasiyasının Ermənistandakı sərhəd qoşunlarının statusu təkrar gözdən keçiriləcək: “Bunlar daşda yonulmuş sənədlər deyil və vaxt ötdükcə problemlər yaranır, hansılar ki, hüquqi və müqavilə dəyişiklikləri tələb edir. Və bu, əlbəttə, ediləcək”.

Tonoyan Rusiyanın Ermənistandakı sərhəd qoşunlarının statusuna konkret nə kimi dəyişikliklərin ediləcəyini dəqiqləşdirməyib. Amma izah edib ki, Şirak əyalətinin Panik kəndində Rusiya hərbi qulluqçularının iştirakı ilə bu yaxınlarda baş verən hadisə dəyişiklikləri sürətləndirə bilər. Belə vəziyyət isə Rusiyada xoş qarşılanmır və Ermənistanla münasibətlər kəskinləşməyə doğru gedir.

Bütün bunlar həm də Paşinyan iqtidarının böyük uğursuzluğu sayılır. Hesab edilir ki, Qərb tərəfindən rədd edilən Ermənistan Rusiyadan da uzaqlaşmaqla özünün təcridini dərinləşdirir.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*

# Ermənistan silahlı bölmələri sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 95 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan kəndində və İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Nəmirli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Təbiət ən mahir rəssamdır









Foto Fərman BAĞIROVUNDUR

# «Azercell»dən uşaqlara sağlam gülüş hədiyyə

*"Mobil Diş Klinikası" pulsuz yardımı davam etdirir*

Ümumdünya Səhiyyə Təşkilatının açıqlamasına görə, yer üzündə 5 milyarda yaxın insan diş problemlərindən əziyyət çəkir. Azərbaycanda isə böyük hissəsi uşaqlar olmaqla əhalinin 80 faizə yaxını diş ağrıları ilə üzləşir. Uşaq evlərində məskunlaşan, ata-ana qayğısından uzaq, kimsəsiz uşaqlar bu baxımdan çətinliklər yaşayır. Aparılan araşdırmalar uşaq müəssisələrində məhz diş xəstəlikləri ilə bağlı ciddi problemlərin olduğunu ortaya çıxarıb. Azərbaycandakı uşaq evlərinin 90 faizində stomatoloji kabinetin olmadığını nəzərə alan "Azercell Telekom" MMC 2009-cu il dekabrın 15-də fəaliyyətinin 13 illiyində daima dəyər verdiyi uşaqlara hədiyyə olaraq ən müasir tibbi avadanlıqla təchiz olunmuş "Mobil Diş Klinikası"nı təqdim edib. "Mobil Diş Klinikası" məhz uşaqların, xüsusilə də uşaq evlərində olan, himayəsiz körpələrin sağlamlığının qorunmasına yönəlib.




Fəaliyyəti boyu minlərlə uşağa sağlam gülüş hədiyyə edən klinikanın həkimləri bu ilin ilk 6 ayı ərzində öz ənənələrinə sadiq qalaraq 400-dən artıq uşağın müayinə və müalicəsini həyata keçirib. Yanvar və fevral aylarında həkimlər Əhmədli qəsəbəsindəki 3 saylı uşaq evində 100-ə yaxın uşağa diş problemlərinin həllində yardımçı olublar. Mart ayında Pirşağı qəsəbəsində yerləşən Xocalı rayon 2 saylı orta məktəbdə təhsil alan 47, apreldə Lökbatan qəsəbəsi uşaq sanatoriyasında müalicə alan 76, mayda Nərimanov rayonu, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində yaşayan 98, iyun ayında isə Sumqayıt şəhər sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbinin 125 uşağı bu pulsuz müayinədən yararlanıb.

Qeyd edək ki, fəaliyyət göstərdiyi 9 il ərzində layihə çərçivəsində minlərlə insan "Mobil Diş Klinikası"nın həkimləri tərəfindən müayinə edilib, ehtiyac olduğu tədqirdə müalicə alıb.

***"Azərbaycan"***

## İqtisadi xəbərlər

### Qida təhlükəsizliyi üzrə dövlət proqramı hazırlanır

Hazırda qida təhlükəsizliyi sahəsində dövlət proqramı üzərində işlənilir. Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli deyib.

"Dövlət proqramı 7 illik olacaq. Bu, 7 il ərzində Azərbaycan ərazisində qida təhlükəsizliyi, baytarlıq və fitosanitariya sahəsində dövlət nəzarətinin həyata keçirilməsinin mərhələlərlə tətbiqi haqqında olan dövlət proqramıdır", - deyə Q.Təhməzli qeyd edib.

### "Azərbaycan" İES-də baş vermiş qəzanın səbəbləri ilə bağlı ilkin rəylər hazırdır

"Azərbaycan" İstilik Elektrik Stansiyası MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar Prezidentin sərəncamı ilə yaradılmış Dövlət Komissiyasına verilmiş tapşırıqlara uyğun olaraq Energetika Nazirliyi elektroenergetika sisteminin dayanıqlığının təmin edilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirir.

Qəzanın səbəblərinin müəyyən edilməsi və fəsadlarının aradan qaldırılması üçün Almaniya və Rusiyanın ixtisaslaşmış şirkətlərindən dəvət olunmuş ekspert qrupu ilə birgə araşdırmalar aparılıb. Araşdırmaların ilkin nəticələri və "Azərbaycan" İES-in 330 kilovoltluq yarımstansiyasında aparılan təhlillər nazirlikdə müzakirə edilib. "Azərbaycan" İES və Mingəçevir-Abşeron xəttində qəza halları zamanı sistemin etibarlığı və dayanıqlığının təmin edilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər müəyyənləşdirilib. Həmin tədbirlərin həyata keçirilməsi ilə bağlı "Azərenerji" ASC-yə tapşırıqlar verilib. Eyni zamanda xarici ekspert qrupunun ilkin rəyi və həyata keçiriləcək tədbirlər barədə məlumatlar Dövlət Komissiyasına təqdim olunub.

Bundan başqa, Dövlət Komissiyasına verilmiş digər tapşırığa əsasən strateji və dövlət əhəmiyyətli obyektlərin generatorlarla təminatı ilə bağlı araşdırmalar aparılır və müvafiq təkliflər hazırlanır.

### "Güzəştli mənzil" sisteminin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər yekunlaşıb

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyindən (MİDA) verilən məlumata görə, "Güzəştli mənzil" sistemi vasitəsilə mənzillərin seçimi zamanı bərabər şəraitin yaradılması, şəffaflığın və operativliyin təmin edilməsi üçün MİDA Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi aidiyyəti şirkət və qurumlarla birlikdə yaranmış nasazlıqları aradan qaldıraraq sistemin fəaliyyətinin təkmilləşdirilməsini həyata keçirib.

"Güzəştli mənzil" sisteminin dayanıqlı, etibarlı, təhlükəsiz, şəffaf və fasiləsiz iş rejimində fəaliyyətini təmin etmək üçün bir sıra işlər görülüb. O cümlədən MİDA tərəfindən "Ernst & Young" nüfuzlu beynəlxalq audit şirkəti cəlb edilərək "Güzəştli mənzil" sisteminin Amerika Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun (AICPA) müəyyən etdiyi təhlükəsizlik, konfidensiallıq, proseslərin bütövlüyü (tam, etibarlı və dəqiq), əlçatanlıq və fərdi məlumatların qorunması ("Trust Services" meyarları) kimi qabaqcıl beynəlxalq standartlara əməl olunması üzrə yoxlamalar keçirilib. Cari il iyulun 20-də "Ernst & Young" şirkəti "Güzəştli mənzil" sisteminin qeyd edilən tələblərə cavab verməsi ilə bağlı həyata keçirdiyi qiymətləndirməni başa çatdırıb və əldə olunmuş nəticələrə dair "SOC 2" və "SOC 3" rəylərini təqdim edib. Aparılmış yoxlamalar nəticəsində "Güzəştli mənzil" sisteminin etibarlığı və əsasnaməsində qeyd olunan məqsəd və fəaliyyət prinsiplərinə uyğunluğu təsdiqlənib.

Məlumat üçün bildirək ki, SOC (Service Organization Controls) - elektron xidmət göstərən təşkilatlarda daxili nəzarət sistemlərinin effektivliyi haqqında hesabatlar toplusudur. "SOC 2" və "SOC 3", "WebTrust" və "SysTrust"ın mövcud 5 prinsipinə (təhlükəsizlik, konfidensiallıq, proseslərin bütövlüyü (tam, etibarlı və dəqiq), əlçatanlıq və icazəsiz girişdən müdafiə) əsaslanan ictimai hesabatlardır. Bu rəyləri əldə edən təşkilatlar sırasında elektron xidmət göstərən "Google" və "Amazon" kimi dünyanın qabaqcıl şirkətləri vardır.

### SOCAR-ın neft məhsulları ixracında 19 faiz artım var

Bu ilin ikinci rübündə SOCAR üzrə neft məhsullarının ixracında 19 faiz artım qeydə alınıb.

Ötən ilin aprel-may-iyun aylarında 350 min tona yaxın neft məhsulu ixrac olunub, bu il isə həmin göstərici 410 min tondan yüksək olub. Bu dövrdə dizel yanacağının ixracı təqribən 48, mütləqləşdirilmiş izopropil spirti 69, maye piroliz qətranı 27, propilen 30, butilen butadien fraksiyasının ixracı 37 faiz artıb.

# İstirahət günlərində səyahətə çıxanları yağmursuz və günəşli hava şəraiti gözləyir

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamenti istirahət günlərində - iyulun 28-29-da səyahətə çıxanlar üçün hava proqnozunu açıqlayıb.

Departamentdən AZƏRTAC-a verilən xəbərə görə, Böyük və Kiçik Qafqaz bölgəsində hava şəraitinin isti və yağmursuz keçəcəyi gözlənilir. Havanın temperaturu dağətəyi rayonlarda 31-36°, dağlıq rayonlarda isə 23-28° isti olacaq.

Lənkəran-Astara bölgəsinə üz tutanları günəşli hava şəraiti gözləyir. Şərq küləyi əsəcək. Havanın maksimal temperaturunun 31-36°, dağlıq rayonlarda 28-32° isti olacağı proqnozlaşdırılır. Aran rayonlarında hava şəraitinin günəşli olacağı ehtimal edilir. Mülayim şərq küləyi əsəcək. Havanın maksimal temperaturunun 35-40° isti olacağı bildirilir.

Naxçıvan Muxtar Respublikasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Havanın maksimal temperaturunun 36-41° isti olacağı ehtimalı var.

Paytaxtda yaxın iki gün ərzində hava şəraiti günəşli keçəcək. Şimal-şərq küləyi əsəcək. Havanın maksimal temperaturunun 32-37° isti olacağı gözlənilir. Çimərliklərdə əlverişli şərait müşahidə olunacaq. Günorta saatlarında saat 11:00-dan 17:00-dək günəş şüalarından qorunmaq üçün mümkün vasitələrdən istifadə etməyiniz tövsiyə edilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## Beynəlxalq aləm

HADİSƏLƏR, FAKTLAR

### Afina ətrafında yanğınlar biləkdən törədilib



Afina yaxınlığında yanğınlar bilərəkdən törədilə bilərdi. Bu barədə Yunanıstan hökuməti məlumat vermişdir.

Mülki müdafiə naziri Nikos Toskas bildirmişdir ki, qısa müddət ərzində bir neçə yerdə başlamış yanğın cinayətkar niyyətin nəticəsi ola bilər. Buna peykdən çəkilmiş şəkillərin təhlili və hadisə yerinə baxış da dəlalət edir.

Toskasın dediyinə görə, cinayətkar fəaliyyətin ciddi əlamətləri mövcuddur. O əlavə etmişdir ki, Yunanıstan hökuməti meşə yanğınları ilə əlaqədar təhqiqat aparır.

Xatırladaq ki, həftənin əvvəllərindən bəri Afina ətrafında davam edən meşə yanğınları 82 nəfərin həyatına son qoymuş, 180 nəfərə yaxın adam xəsarət almışdır. Quruda və suda axtarış-xilasetmə əməliyyatları davam edir.

### İmran Xan Pakistanda parlament seçkilərində qalib gəldi

Keçmiş kriket ulduzu İmran Xanın başçılıq etdiyi "Ədalət uğrunda hərəkat" partiyası Pakistanda keçirilmiş ümumxalq seçkilərində qələbə qazanmışdır. Lakin partiya hökuməti formalaşdırmaq üçün koalisiya üzrə tərəfdaş axtarıb tapmalıdır. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Seçki komissiyasının məlumatına görə, Xanın partiyası parlamentdə 269 yerdən 109-na yiyələnmişdir. Onun əsas rəqibi - sabiq baş nazir Nəvaz Şərifin rəhbərlik etdiyi Pakistan Müsəlman Liqası 63 mandat qazanmışdır.



Xan söz vermişdir ki, ölkəni indiyədək heç kəsin etmədiyi kimi idarə edəcək, korrupsiyaya qarşı mübarizə aparacaq, regional əməkdaşlığı inkişaf etdirəcək və ABŞ-la yeni münasibətlər quracaq. Onun dediyinə görə, Vaşinqtonla münasibətlər bundan sonra "birtərəfli" olmayacaq.

Korrupsiyada təqsirli bilinərək onillik həbs cəzası çəkən Nəvaz Şərif Xanın partiyasının qələbəsini tanımamış və seçkilər zamanı xeyli saxtakarlıq, habelə digər pozuntular barədə məlumat vermişdir. İmran Xan isə bu seçkiləri Pakistan tarixində ən şəffaf seçkilər kimi qiymətləndirmişdir.

### BMT maliyyə problemləri ilə üzləşib

BMT-nin pul ehtiyatları heç vaxt indiki kimi aşağı səviyyədə olmamışdır. Bu barədə təşkilatın Baş katibi Antoniu Quterreşin iştirakçı ölkələrə və BMT-nin əməkdaşlarına ünvanladığı bəyanatda məlumat verilir.

Sənəddə qeyd olunur ki, BMT xərcləri ixtisar edəcək və lazımi tədbirlər görəcək: "Ümumi vəziyyət təşviş yaradır. BMT səviyyəsində bir təşkilat maliyyə çətinlikləri yaşamamalıdır. Yardıma ehtiyacı olanlara kömək edə bilməməyimiz bizi daha çox narahat edir". Təşkilatın mətbuat katibi Stefan Düjarrik



jurnalistlərə demişdir ki, BMT-nin iştirakçısı olan 193 ölkədən yalnız 112-si iyul ayı üçün üzvlük haqqını ödəmişdir. Onun dediyinə görə, yaranmış vəziyyətin səbəbi ödənişlərin gecikdirilməsi, yaxud verilməməsidir.

BMT-nin ən iri donoru - ABŞ hələ ki lazımi vəsaitləri ödəməyib. Vaşinqtonun payına təşkilatın büdcəsinin təxminən 22 faizi düşür.

Bundan əvvəl Donald Tramp administrasiyası BMT-də inzibati və maliyyə islahatları aparmağa, təşkilatın büdcəsini ədalətli şəkildə maliyyələşdirməyə çağırmışdır.

ABŞ 2018-2019-cu illərdə BMT-nin maliyyələşdirilməsini 285 milyon dollar azaltmaq qərarına gəlmişdir.

### Varşavada iğtişaşlar




Polşanın paytaxtı Varşavanın küçələrində iğtişaşlar baş verir. Ali Məhkəmədə keçirilmiş islahatlardan narazı qalan nümayişçilər Prezident sarayının yaxınlığında mitinq keçirirlər. Yerli KİV-in xəbərinə görə, polis etirazçılara qarşı gözyaşardıcı qazdan istifadə etmişdir. Lakin hüquq mühafizə orqanları təkid edir ki, bu, cavab reaksiyası olmuşdur. Belə ki, əvvəlcə nümayişçilər polislər tərəfə hansısa maddə püskürtməyə başlamışlar.

Xatırladaq ki, bu il aprelin 3-də Polşada yeni qanun qüvvəyə minmişdir. Qanuna görə, Ali Məhkəmənin bütün hakimləri 65 yaşdan sonra təqaüdə çıxmalıdır. Eyni zamanda yaşlı hakimin səhhəti imkan versə və o, Prezidentin razılığını alsa, vəzifəsini qoruyub saxlaya bilər.

Jurnalistlər aydınlaşdırmışlar ki, Ali Məhkəmənin 27 üzvündən 16-sı müvafiq sənədləri təqdim etmişdir. Qalanları isə bundan imtina etmişlər. Onlar əmindirlər ki, yeni qanun dövlət başçısının Ali Məhkəməyə nəzarət etməsinə imkan verəcək.

# Respublika çaylarında suyun səviyyəsi azalıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, hazırda Böyük Qafqazın Quba-Xaçmaz bölgəsi çaylarında sululuq ongünlük normanın 95, Kiçik Qafqazın çaylarında 40-100, Lənkəran-Astara çaylarında 25-50, Naxçıvan Muxtar Respublikası çaylarında isə 5 faizini təşkil edir.

Departamentdən AZƏRTAC-a verilən məlumata görə, iyulun 27-də Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 4 santimetr azalma müşahidə olunub. Hazırda məntəqədə su sərfi saniyədə 123 kubmetr olmaqla ongünlük normanın 80 faizini təşkil edir. 2017-ci ildə isə bu rəqəm saniyədə 77 kubmetr təşkil etməklə ongünlük normanın 50 faizinə bərabər olub.

Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində 5 santimetr azalma qeydə alınıb. Hazırda məntəqədə su sərfi saniyədə 131 kubmetr olmaqla ongünlük normanın 149 faizini təşkil edir. Ötən il isə bu göstərici saniyədə 26,5 kubmetr təşkil edərək ongünlük normanın 30 faizinə bərabər olub.

Kür çayının aşağı axınında isə suyun səviyyəsində əsasən azalma müşahidə edilib. Belə ki, Kür çayının Surra məntəqəsində 3, Şirvan və Salyanda 2 santimetr azalma qeydə alınıb, lakin Bankədə 5, Araz çayının Novruzlu məntəqələrində isə 2 santimetr artım müşahidə olunub.

Hazırda Surra məntəqəsində suyun səviyyəsi 322 (2017-ci il iyulun 27-də 348 sm), Şirvanda 169 (2017-ci il iyulun 27-də 197 sm), Salyanda 83 (2017-ci il iyulun 27-də 112 sm), Bankədə 177 (2017-ci il iyulun 27-də 185 sm), Araz çayının Novruzlu məntəqəsində isə 41 santimetrə (2017-ci il iyulun 27-də 53 sm) bərabərdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi Mehdi Mirzəyevə anası

**SƏADƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin Subartezian Quyularına Servis Xidməti İdarəsinin rəisi

**MİRZALI BEHBUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8580
Sifariş 2192